# ELM

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin orqanı

Qüvvət elmdədir...

Nizami Gəncəvi

НАУКА

Орган Президиума Национальной академии наук Азербайджана

SCIENCE

Newspaper of the Presidium of the Azerbaijan National Academy of Sciences

№ 25 (1507) ❖ Cümə, 11 sentyabr 2026-cı il ❖ Qəzet 1984-cü ildən nəşr olunur




## Əziz Səncərin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının beynəlxalq elmi və humanitar əməkdaşlığının möhkəmləndirilməsində xüsusi xidmətlərinə görə Əziz Səncər "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 sentyabr 2026-cı il*

# Dövlət büdcəsinin tərkibində yaradılmış məqsədli büdcə fondlarının və dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar vəsaitlərindən istifadəyə dair əlavə tədbirlər haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, dövlət büdcəsinin tərkibində yaradılmış məqsədli büdcə fondlarının və dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar vəsaitlərindən istifadə mexanizmlərinin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. dövlət büdcəsindən maliyyələşən təşkilatların (Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti istisna olmaqla) büdcədənkənar vəsaitlərinin işçilərin sosial müdafiəsinin gücləndirilməsinə yönəldilən hissəsindən, bu Fərmanın 1.3-cü bəndi nəzərə alınmaqla, yalnız həmin təşkilatların "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq inzibati və yardımçı vəzifə tutmayan işçilərinin sosial müdafiəsinin gücləndirilməsi üçün istifadə olunur;

1.2. bu Fərmanın 1.1-ci bəndi nəzərə alınmaqla, dövlət büdcəsindən maliyyələşən təşkilatların (Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti istisna olmaqla) büdcədənkənar vəsaitlərinin qalan hissəsi dövlət büdcəsinə köçürülür;

1.3. bu Fərmanın 1.1-ci bəndi nəzərə alınmaqla, büdcədənkənar vəsaitlər hesabına verilən vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin yuxarı hədləri aşağıdakılardır:

1.3.1. vəzifə maaşına əlavələr – təqvim ayı ərzində hər bir işçiyə münasibətdə onun aylıq vəzifə maaşının 1,0 mislinədək;

1.3.2. mükafat və digər ödənişlər – təqvim ili ərzində illik əməkhaqqı fondunun 20 faizinədək.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

3.1. aşağıdakılar barədə təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin:

3.1.1. Azərbaycan Respublikası dövlət büdcəsinin tərkibində yaradılmış məqsədli büdcə fondlarının ləğv edilməsi və həmin fondların mədaxil mənbələrindən istifadə olunması;

3.1.2. bu Fərmanın 1-ci hissəsi nəzərə alınmaqla, normativ hüquqi aktların təkmilləşdirilməsi;

3.1.3. bu Fərmanın 1-ci hissəsi nəzərə alınmaqla, dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar vəsaitlərinin formalaşdırılması, toplanılması, istifadəsi və uçotunun aparılması qaydası;

3.1.4. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin və Azərbaycan Respublikası Xüsusi Tibb Xidmətinin tabeliyində olan qurumların göstərdiyi ödənişli xidmətlərdən əldə edilən vəsaitlərin formalaşdırılması və istifadəsi;

3.2. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyində, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsində və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətində, habelə bu Fərmanın 1.1-ci bəndinin təsir dairəsinə düşən dövlət büdcəsindən maliyyələşən təşkilatlarda çalışan işçilərin vəzifə maaşlarında artımlar olduqda bu Fərmanın 1-ci hissəsi üzrə təklifləri hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.3. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

4. "Azərbaycan Respublikasının Seçki Məcəlləsində, Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, "Hərbi qulluqçuların statusu haqqında", "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında", "Polis haqqında", "Gömrük orqanlarında xidmət haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Dövlət qulluğu haqqında", "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında", "Ədliyyə orqanlarında qulluq keçmə haqqında", "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında", "Hesablama Palatası haqqında", "Media haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi və "Dövlət qulluqçusu üçün hakimiyyət səlahiyyətinin icrasına görə əlavə haqqın təyin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununun ləğv edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 27 fevral tarixli 368-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi, bəzi fərmanlarının və sərəncamlarının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 19 mart tarixli 624 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2026, № 3, maddə 228) 2.1-ci bəndi ləğv edilsin.

5. Bu Fərmanın 1.1-ci və 1.3-cü bəndləri 2026-cı il sentyabrın 1-dən tətbiq edilir və 1.2-ci bəndi 2027-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 sentyabr 2026-cı il*

# AMEA-da Nobel mükafatı laureatı, professor Əziz Səncərin 80 illik yubileyinə həsr edilmiş elmi konfrans

**Sentyabrın 8-də Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin iclas zalında AMEA-nın fəxri üzvü, Nobel mükafatı laureatı, professor Əziz Səncərin 80 illik yubileyinə həsr edilmiş elmi konfrans keçirilib.**

AMEA-nın Biologiya və Tibb Elmləri Bölməsinin və AMEA-nın Rəyasət Heyəti aparatının Elmin populyarlaşdırılması şöbəsinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, AR Milli Məclisinin Əmək və sosial siyasət komitəsinin sədri tibb üzrə fəlsəfə doktoru Musa Urud, Türkiyənin Azərbaycandakı səfirliyinin mətbuat müşaviri Alptekin Cihangir İşbilir, AR səhiyyə nazirinin müşaviri Elgün Səmədov, Azərbaycan Tibb Universitetinin prorektoru professor Məlahət Sultanova, AMEA-nın Rəyasət Heyətinin üzvləri, elmi müəssisə və təşkilatların direktorları və aidiyyəti şəxslər iştirak ediblər.

Nobel mükafatı laureatı, professor Əziz Səncər və Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru professor Ədalət Muradov isə konfransa onlayn formatda qoşulublar.

Konfransı giriş nitqi ilə açan **akademik İsa Həbibbəyli** Nobel mükafatı laureatı, Şimali Karolina Universitetinin professoru, görkəmli türk alimi Əziz Səncəri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən "Şöhrət" ordeni ilə təltif edilməsi münasibətilə Azərbaycan elmi ictimaiyyəti və Akademiya kollektivi adından ürəkdən təbrik edib.

Akademik İsa Həbibbəyli bildirib ki, dövlət başçısının türk oğlu Əziz Səncərin fəaliyyətinə verdiyi bu yüksək qiymət həm Azərbaycan-Türkiyə elmi əlaqələrinin daha da möhkəmlənməsinə xidmət edən əhəmiyyətli hadisədir, həm də dünya şöhrətli alim Əziz Səncərin timsalında Azərbaycan elminin dünyaya inteqrasiyası baxımından dövlətimizin açdığı üfüqləri əyani şəkildə nümayiş etdirir.

AMEA rəhbəri qeyd edib ki, bu təltif, bütövlükdə Əziz Səncərin Türk dünyasında və Azərbaycanda davamçılarının, bu böyük yolun fədakar nümayəndələrinin yetişdirilməsinə və hazırlanmasına açılan yol deməkdir. Akademik vurğulayıb ki, bütün bunlara görə Azərbaycan elminin təmsilçiləri, Azərbaycan elmi ictimaiyyətinin nümayəndələri Azərbaycan Prezidenti cənab İlham Əliyevə Türk dünyasının qüruru sayılan Əziz Səncərin fəaliyyətinə göstərdiyi bu yüksək qiymətə görə dərindən minnətdarlıqlarını bildirirlər.

Akademik İsa Həbibbəyli diqqətə çatdırıb ki, Əziz Səncərin DNT kodlarının açılması, xüsusən də DNT-nin təmiri kimi dünyada təkrarı olmayan bir elmi istiqamətdə əldə etdiyi elmi kəşflər beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilib. Akademik bildirib ki, 2015-ci ildə alimin Nobel mükafatı ilə təltif olunması onun illər uzunu, hələ İstanbul Universitetində ikən düşündüyü, Texas Universitetində, Yel Universitetində keçdiyi yolların, apardığı axtarışların və cəsarətli nəticələrin beynəlxalq elmi ictimaiyyətə təqdim olunması deməkdir.

Akademik İsa Həbibbəyli qeyd edib ki, dünyanın ən böyük bəlalarından biri olan xərçəng xəstəliyinin müalicəsi ilə bağlı indiyə qədər müxtəlif metodologiyalar təqdim edilib. Vurğulayıb ki, Əziz Səncər həmin ixtira və kəşfləri təkrar etməyərək xərçəng xəstəliyinin biokimyəvi üsullarla müalicəsinin tam yeni bir elmi istiqamətini açıb.

Akademik İsa Həbibbəyli qeyd edib ki, 2024-cü ildə professor Əziz Səncər Akademiyanın dəvətini qəbul edərək Azərbaycana gəlib və həmin vaxt bir həftə ərzində "Əziz Səncər həftəsi" kimi çox unudulmaz günlər yaşanıb. Bildirib ki, Azərbaycan Milli Elmlər Akademiyasında keçirilən görüşlər və müzakirələr, Naxçıvan Muxtar Respublikasına Əziz Səncərlə birgə edilən səfər yaddaqalan hadisələr






olub. Natiq vurğulayıb ki, həmin həftə ərzində Bakı Dövlət Universitetində, UNEC-də, ADA Universitetində, Azərbaycan Tibb Universitetində və digər yerlərdə keçirilən görüşlər Azərbaycan elminin, sözün əsl mənasında, irəli getməsinə böyük türk oğlu Əziz Səncərın göstərdiyi böyük xidmətin əməli ifadəsi olub.

Eyni zamanda AMEA-nın Böyük akt zalında ölkə ictimaiyyətinin nümayəndələri qarşısında Əziz Səncərin etdiyi "Türk dünyasının elm siyasəti: reallıqlar və çağırışlar" mövzusundakı məruzə Azərbaycan elminin, Türk dünyası elminin prioritetlərini, bundan sonrakı gələcək inkişafının yollarını aydın şəkildə göstərib. Akademik vurğulayıb ki, Çin Xalq Respublikası ilə, orada gedən elmi proseslərlə Türk dünyasını bir yerdə, bütün potensialını nəzərə alaraq müqayisə etmək və Çin modelini türk dünyasının elmi inkişafı üçün nümunə kimi əyani misallarla, rəqəmlərlə göstərmək elm adamları üçün öz fəaliyyətlərini yenidən qurmağın böyük başlanğıcına çevrilib.

Akademik İsa Həbibbəyli qeyd edib ki, Əziz Səncərin fikrincə, Türk dünyasının alimləri inteqrasiya edərək, ortaq layihələr üzərində çalışaraq, birləşərək XXI əsrin elmini, elmin inkişafında Türk dünyasının yerini və mövqeyini qüvvətləndirərək Çin nümunəsində inkişaf edə bilər. Bildirib ki, bu, Türk dünyasının inkişaf etdirilməsinin Əziz Səncər konsepsiyası, Əziz Səncər modelidir.

Diqqətə çatdırıb ki, bu gün AMEA-nın qardaş Türkiyə ilə, Özbəkistanla, Qazaxıstanla, Qırğızıstanla, Türkmənistanla, Kərküklə çox yaxın əlaqələri vardır. Akademik bildirib ki, Türk dünyası ölkələrinin akademik qurumları ilə, elmi-tədqiqat müəssisələri ilə əlaqələr hər gün inkişaf edir. Akademik İsa Həbibbəyli qeyd edib ki, bu, Əziz Səncərin açdığı, onun müəyyən etdiyi yola Azərbaycan elminin də ürəkdən xidmət etməsinin bir nümunəsidir.

Akademik İsa Həbibbəyli Azərbaycan elmi ictimaiyyəti adından ABŞ-ın Şimali Karolina Universitetinin professoru, qardaş Türkiyənin yetirməsi, öz ölkəsinə və dilinə, bütün türk dünyasına sonsuz hörmətini göstərən Nobel mükafatı laureatı Əziz Səncəri anadan olmasının 80 illiyi və dövlət başçısı tərəfindən "Şöhrət" ordeni ilə təltif olunması münasibətilə ürəkdən təbrik edib, ona cansağlığı arzulayıb.

Daha sonra akademik İsa Həbibbəyli ölkə başçısının Əziz Səncərin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Sərəncamını tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Tədbirdə **Nobel mükafatı laureatı, professor Əziz Səncər** çıxış edərək fəaliyyətinə yüksək qiymət verdiyi və onu "Şöhrət" ordeni ilə təltif etdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident hörmətli Mehriban xanıma minnətdarlığını bildirib.

Türk dünyasının elminə xidmət etdiyini deyən professor Əziz Səncər Qarabağı azad etmək üçün canını verən azərbaycanlı əsgərlərin də onun qədər türklük uğrunda fədakarlıq etdiyini vurğulayıb. O, Qarabağın həmişə onun qəlbində olduğunu qeyd edib və Qarabağın azad edilməsinin onun üçün, eləcə də Türk dünyası üçün bir dönüş nöqtəsi olduğunu bildirib.

Professor Əziz Səncər vurğulayıb ki, Türkiyə Cümhuriyyətinin 1922-ci ildə düşməni Türkiyədən təmizləməsi və 2020-ci ildə Azərbaycanın Qarabağı işğaldan azad etməsi ilə Türk dünyası olaraq artıq öz vətənlərinə sahib olublar. O qeyd edib ki, bundan sonra qarşıda duran əsas vəzifə elm yaratmaq və sivilizasiya sahəsində, sivilizasiyada qabaqcıl dövlətlərin səviyyəsinə çatmaqdır. Bu baxımdan Qarabağ müharibəsində şəhid olan və qazi olan övladları, qardaşları heç vaxt unutmamağın vacibliyini vurğulayıb.

Alim diqqətə çatdırıb ki, Türk dünyasının çox istedadlı gəncləri var və bu gənclərə imkan verərək onları elmə yönəltməklə, çalışmalarını təşviq etməklə Türk dünyasını elmdə dünyanın ən qabaqcıl səviyyəsinə çatdırmaq mümkündür.

Nobel mükafatı laureatı Əziz Səncər uşaqlara kiçik yaşlardan etibarən elmi təcrübə aparmağı və sual verməyi öyrətməyin vacibliyini, qız və oğlan uşaqlarına eyni təhsil imkanlarının təmin edilməsinin zəruriliyini bildirib.

Professor Əziz Səncər Türk dövlətləri dedikdə, Türkiyə, Azərbaycan, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan və Şimali Kipr Türk Cümhuriyyətinin universitetləri, araşdırma mərkəzləri, düşüncə institutları və elm adamları arasındakı əməkdaşlığın gücləndirilməsini nəzərdə tutduğunu söyləyib. O qeyd edib ki, düşüncə qurumlarının elmi biliklə qərarvermə prosesləri arasında güclü bir körpü qurması Türk dünyasının gələcəyi baxımından əhəmiyyətlidir.

Əziz Səncər Bakıda keçirilən bu toplantının Türk dünyasında elm, təhsil və texnologiya əməkdaşlığının daha da güclənməsinə töhfə verməsini arzuladığını deyib və "Tanrı Türkü qorusun", - deyərək çıxışını yekunlaşdırıb.

Tədbirdə **Türkiyənin Azərbaycandakı səfirliyinin mətbuat müşaviri Alptekin Cihangir İşbilir** çıxış edərək Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Birol Akgün adından tədbir iştirakçılarını salamlayıb. O, bugünkü konfransda elmin gücünü bizlərə göstərən, gələcək nəsillər üçün rol model olan bir insandan söz açıldığını deyib. Natiq Əziz Səncərin Mardinin bir ilçəsindən dünyanın önəmli yerlərinə uzanan şərəfli bir yol keçdiyini bildirib. Mətbuat müşaviri Əziz Səncərin uğurlarında onun sarsılmaz iradəsinin və çalışma əzminin dayandığını vurğulayıb.

O, Nobel mükafatı laureatı professor Əziz Səncəri xüsusi və önəmli edən əsas cəhətin vətəninə, torpağına və köklərinə bağlılığı olduğunu deyib. Cənab Prezident İlham Əliyevin Əziz Səncərin fəaliyyətinə hər zaman yüksək qiymət verdiyini bildirən Alptekin Cihangir İşbilir gələcəkdə də Türk dünyasında bənzər elm adamlarının yetişəcəyinə inamını vurğulayıb.

O, Əziz Səncərin artıq Türkiyənin və Azərbaycanın sərhədlərini aşaraq bütün Türk dünyasının müştərək elm xadiminə çevrildiyini deyib. Alimin "Şöhrət" ordeninə layiq görülməsinin elmə, eləcə də Türkiyə-Azərbaycan qardaşlığına göstərilən dəyərin yüksək təzahürü olduğunu bildirib. Mətbuat müşaviri Əziz Səncərin adının sağlığında ikən medallara, hava limanlarına və küçələrə verilməklə ölümsüzləşdirildiyini vurğulayıb.

Açılış nitqlərindən sonra professor Əziz Səncərin həyat və fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirilib.

Daha sonra **AMEA-nın vitse-prezidenti, AR ETN Molekulyar Biologiya İnstitutunun direktoru v.i.e., akademik İradə Hüseynova** "Professor Əziz Səncər: həyat yolu, elmi irsi və dünya elminə töhfələri" mövzusunda məruzə ilə çıxış edib.

Çıxışına dövlət başçısının Sərəncamı ilə Əziz Səncərin Azərbaycanın beynəlxalq elmi və humanitar əməkdaşlığının möhkəmləndirilməsindəki xüsusi xidmətlərinə görə "Şöhrət" ordeni ilə təltif olunmasını böyük qürurla xatırlatmaqla başlayan akademik İradə Hüseynova bu qərarın Türk dünyasının elminə və birliyinə verilən yüksək dəyərin təzahürü olduğunu vurğulayıb.

Akademik İradə Hüseynova Əziz Səncərin 1946-cı il sentyabrın 8-də Türkiyənin Mardin vilayətinin Savur rayonunda çoxuşaqlı, zəhmətkeş bir ailədə dünyaya göz açdığını diqqətə çatdırıb. Valideynlərinin təhsili olmasa da, övladlarının təhsilinə böyük önəm verdiklərini bildirən akademik xüsusilə anası Məryəm xanımın təhsilə inamının gənc Əzizin xarakterinin formalaşmasında mühüm rol oynadığını qeyd edib.

1963-cü ildə İstanbul Universitetinin Tibb fakültəsinə daxil olan və 1969-cu ildə oranı birinciliklə bitirən Əziz Səncərin elmi maraqlarının hələ tələbəlik illərində DNT-nin ikiqat spiral quruluşunu öyrənərkən yarandığını vurğulayan akademik İradə Hüseynova bildirib ki, Səncər təhsilini bitirdikdən sonra doğma Savurda 18 ay pulsuz müalicə kabineti açaraq kənd həkimi kimi fəaliyyət göstərib. Lakin xəstəliklərin molekulyar səbəblərini və "niyə?" sualına cavab tapmaq arzusu onu yenidən fundamental elmə gətirib çıxarıb.

"2015-ci ildə DNT-nin bərpası mexanizmlərinin - nukleotid eksiziyası reparasiyasının molekulyar səviyyədə kəşfinə görə Kimya üzrə Nobel mükafatına layiq görülməsi onun onilliklər boyu çəkdiyi zəhmətin zirvəsidir. Səncər yalnız mexanizmi izah etməmiş, həm də DNT reparasiyasının insan genomu boyunca xəritələndirilməsini ("Piri Rəis xəritəsi") həyata keçirmiş və sirkad ritmlərin xərçəngin xronoterapiya ilə müalicəsindəki mühüm rolunu sübut etmişdir", - deyə İradə Hüseynova qeyd edib.

Akademik İradə Hüseynova Əziz Səncərin hər zaman köklərinə bağlı olduğunu, Nobel medalını və diplomunu Anıtqəbirdə Mustafa Kamal Atatürkün xatirəsinə təqdim etdiyini vurğulayıb. Həmçinin həyat yoldaşı Gwen Səncər ilə birlikdə xaricdə oxuyan gənclərə dəstək olmaq məqsədilə Chapel Hill-də Karolina Türk Evini və Səncər Mədəniyyət Mərkəzini qurduğunu xatırladıb.

Əziz Səncərin Azərbaycana səfərlərini, Prezident İlham Əliyevlə görüşlərini, TEKNOFEST Azərbaycan festivalındakı iştirakını və Elmlər Akademiyasında, eləcə də Molekulyar Biologiya İnstitutunda alim və tələbələrlə keçirdiyi unudulmaz görüşləri xüsusi vurğulayan İradə Hüseynova onun gənclərə ünvanladığı tövsiyəni xatırladıb.

Çıxışının sonunda akademik İradə Hüseynova Əziz Səncərin ömür yolunun "Zəhmət, elm və vəfa" fəlsəfəsinin ən parlaq təcəssümü olduğunu və onun elmi irsinin gələcək nəsillərə yol göstərməyə davam edəcəyini qeyd edib.

Konfransda, həmçinin **AR Milli Məclisinin Əmək və sosial siyasət komitəsinin sədri tibb üzrə fəlsəfə doktoru Musa Urud, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru professor Ədalət Muradov, AR səhiyyə nazirinin müşaviri Elgün Səmədov və Azərbaycan Tibb Universitetinin prorektoru professor Məlahət Sultanova** çıxış edərək professor Əziz Səncərin zəngin elmi fəaliyyətinə, ölkəmizə sevgisinə, eləcə də Türk dünyasında elmin inkişafı istiqamətində verdiyi tövsiyələrə diqqət çəkiblər.

Çıxışlardan sonra Azərbaycan Milli Elmlər Akademiyasının "Əziz Səncər döş nişanı" ilə təltif olunan akademik İradə Hüseynovaya, tibb üzrə fəlsəfə doktoru Musa Uruda və professor Ədalət Muradova mükafatlar təqdim olunub.

Sonda xatirə şəkilləri çəkdirilib.

# Nobel mükafatı laureatı Əziz Səncər: "Prezident İlham Əliyevə və hörmətli Mehriban xanıma minnətdarlığımı bildirirəm"

**AMEA-nın Rəyasət Heyətinin iclas zalında Azərbaycan Milli Elmlər Akademiyasının fəxri üzvü, dünya şöhrətli görkəmli alim, Nobel mükafatı laureatı, professor Əziz Səncərin 80 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi konfrans keçirilib.**




Konfransa onlayn qoşulan professor Əziz Səncər geniş nitq ilə çıxış edib. Həmin nitqi təqdim edirik:

"Hörmətli İsa müəllim, hörmətli tədbir iştirakçıları.

Mən professor Əziz Səncər, mənim fəaliyyətimə yüksək qiymət verdiyi və məni "Şöhrət" ordeni ilə təltif etdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident hörmətli Mehriban xanıma minnətdarlığımı bildirirəm.

Mənə dəyər verdiyiniz və 80 illik yubileyimi qeyd etdiyiniz üçün Sizlərə də minnətdarlığımı bildirirəm. Mənim üçün çox gözəl sözlər söylədiniz, çox sağ olun, təşəkkür edirəm.

Bəli, mən türk elminə xidmət etmişəm. Lakin məndən soruşsanız, Qarabağı azad etmək üçün canını verən azərbaycanlı əsgərlərimiz mənim qədər türklük üçün fədakarlıq etmişdir. Bunu heç vaxt unutmayın. Qarabağ həmişə mənim ağlımdadır. Qarabağın azad edilməsi mənim üçün, Türk dünyası üçün bir dönüş nöqtəsidir.

Çünki Türkiyə Cümhuriyyətinin 1922-ci ildə düşməni Türkiyədən təmizləməsi və 2020-ci ildə Azərbaycanın Qarabağı işğaldan azad etməsi ilə biz Türk dünyası olaraq artıq vətənimizə sahib olduq. Bundan sonra bizə düşən elm yaratmaq və sivilizasiya sahəsində, sivilizasiyada qabaqcıl dövlətlər səviyyəsinə çatmaqdır. Bu baxımdan Qarabağ müharibəsində şəhid olan, qazi olan övladlarımızı, qardaşlarımızı heç vaxt unutmayın. Mən unutmuram. Ümid edirəm ki, heç bir azərbaycanlı qardaşım da unutmaz. Bu, mənim həmişə ağlımdadır.

Təbii ki, bir elm adamı olaraq mənim elm haqqında xüsusi fikirlərim var. Biz Türk dünyası olaraq böyük insan gücünə sahibik. Çox istedadlı gənclərimiz var. Bu gənclərə imkan verib onları elmə yönəltsək və çalışmalarını təşviq etsək, Türk dünyasının elmdə dünyanın ən qabaqcıl səviyyəsinə çata biləcəyinə inanıram.

Biz keçmişimizlə fəxr edirik. Özbəkistandan Azərbaycana, Türkiyəyə, Balkanlara qədər bizim böyük bir keçmişimiz var. Lakin Türk dünyası keçmişdə elmə və insanların ortaq sivilizasiyasına böyük töhfələr verməsinə baxmayaraq, yaxın zamanlarda bunu edə bilməmişdir və ya biz keçmişlə öyünməklə heç bir yerə çata bilmərik. Biz bu gün nə edəcəyimizlə, nə etdiyimizlə fəxr etməliyik və buna görə elmə və texnologiyaya ağırlıq verməliyik.

Uşaqlarımıza kiçik yaşlardan etibarən təcrübə aparmağı və sual verməyi öyrətməli, qız və oğlan uşaqlarımıza eyni təhsil imkanlarını təmin etməliyik. Elm adamlarına ləyaqətə əsaslanan imkanlar və azad iş mühiti yaratmalıyıq.

Türk dövlətlərindən məqsədim Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Şimali Kipr Türk Cümhuriyyəti, Özbəkistan, Türkiyə və Türkmənistanın universitetləri, araşdırma mərkəzləri, düşüncə institutları və elm adamları arasındakı əməkdaşlığı gücləndirməkdən ibarətdir. Düşüncə qurumlarımızın elmi biliklə qərarvermə prosesləri arasında güclü bir körpü qurması Türk dünyasının gələcəyi baxımından əhəmiyyətlidir.

Bir-birimizi tanımalı, birlikdə araşdırma aparmalı və xüsusilə gənc elm adamlarımızın ortaq çalışmalar aparmasının, birlikdə istehsal etməsinin qarşısını açmalıyıq.

Mənim üçün ən mühüm məsələlərdən biri Türk dünyasının inkişafı və türk gənclərinin elmdə ən yüksək sıralarda yer almasıdır. Bunun yolu bəllidir: Elm yaradacağıq və elm yaratmaq üçün də çox çalışacağıq.

Bakıdakı bu toplantının Türk dünyasında elm, təhsil və texnologiya əməkdaşlığının daha da güclənməsinə töhfə verməsini arzulayıram. Ümid edirəm ki, bütün Türk və Azərbaycan xalqı bu toplantıdan xəbərdardır və ya dinləyirlər. Ortaq çalışmamız və ya elmi inkişaf etdirməyimiz lazımdır.

Mən, əlbəttə, bir müəllim olaraq saatlarla danışa bilərəm. Müəllimlər çox danışır. Lakin burada sözü qısa kəsirəm. Sözümü bitirməzdən əvvəl bildirmək istəyirəm ki, azərbaycanlıların hamısı mənim qardaşımdır. Amma bəziləri ilə şəxsən tanış olmaq imkanım oldu və onlarla yaxın dost olduq. Onların hamısından burada bəhs etmək istəyirəm.

Əlbəttə, cənab İsa bəylə, bizim akademiyanın prezidentidir, onunla da tanış oldum. Lakin ondan əvvəl Azərbaycanda ilk tanış olduğum üç nəfər cənab Ədalət Muradov müəllim, Elşən Bağırzadə və qardaşım Anar Kərimov, onlardan sonra İradə Hüseynova və Esmira Əlirzayeva xanımlarla tanış oldum və onların elmi düşüncələrini öyrəndim.

Azərbaycan qadınları tamam başqadır. Burada Adatka İqbal adlı bir qızımız var, azərbaycanlıdır. O, ən çətin, ən mümkün olmayanı edir. Mən Adatka İqbalı Amerikada tanıdım. Adatka İqbal hər Türk düşmənininin qarşısında dik durmuşdu və Türk dünyasını təkbaşına müdafiə etmişdi.

Həmçinin cənab səfir Xəzər İbrahimlə tanış oldum və Diaspor rəsmisi Fuad Muradov qardaşımla da tanış oldum. O da mənə çox yaxından maraq göstərdi.

Sonda valideynlərini Qarabağ müharibəsində itirən Xədicə Şahnəzərli və onun bacısı qızı Railə Əsgərova ilə dost oldum və bunlar mənim yaxın azərbaycanlı dostlarımdır.

Son olaraq Almaniyada çalışan və Türkiyədə ara-sıra həm Türkiyədə, həm də Azərbaycanda dərs deyən cənab elm adamımız Məsud Əfəndiyevlə də tanış olduq və Türk dünyasında nə etməli olduğumuzu danışdıq.

Azərbaycan haqqında, Türk dünyası haqqında deyəcəyim şeylər çoxdur. İnşallah, yenidən fürsət olar, sizləri ziyarət edərəm və üz-üzə danışar, bunları müzakirə edərik.

Kosovodan Kaşqara qədər türk vardır. Ümid edirəm ki, bunu hamınız ağlınızda saxlayarsınız. Türk yalnız Türkiyədə deyil, yalnız Azərbaycanda deyil, Kosovodan Kaşqara qədər uzanan böyük bir insan topluluğudur və bu böyük topluluğun həm böyük maddi, həm də insani gücü vardır. Onlardan istifadə etməli və dünyanın ən qabaqcıl dövlətləri ilə rəqabət apara biləcək vəziyyətə gəlməliyik.

İnşallah... 80 yaşındayam, Allah nə qədər ömür verərsə, o qədər yaşayaram, amma inşallah həyatımda bunun təsirini görərəm. Bu saatda mənim üçün toplandığınız üçün sizə çox təşəkkür edirəm.

Sağ olun, var olun.

Tanrı Türkü qorusun.

# Elm və ədəbiyyat: Xalq şairi və akademiklik missiyası

**Azərbaycan Yazıçılar Birliyinin (AYB) Səməd Vurğun adına Yaradıcılıq Evində AMEA alimlərinin "Elm, ədəbiyyat və sosial həyat" (Fizika və lirika - IX) adlı ədəbi-bədii tədbiri keçirilib.**



AMEA, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası, AYB, Akademiyanın Azad Həmkarlar İttifaqının və AMEA Rəyasət Heyəti aparatının Elmin populyarlaşdırılması şöbəsinin birgə təşkilatçılığı ilə baş tutan tədbir Azərbaycanın ilk Xalq şairi, görkəmli dramaturq, ədəbiyyatşünas, ictimai xadim, akademik Səməd Vurğunun 120 illiyinə həsr edilib.

Əvvəlcə AMEA əməkdaşlarının rəsm əsərlərindən ibarət sərgiyə baxış keçirilib.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Daha sonra Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Ədəbi-bədii tədbirdə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədr müavini Musa Mirzəyev çıxış edərək Prezident İlham Əliyevin "Xalq şairi Səməd Vurğunun 120 illiyinin qeyd edilməsi haqqında" Sərəncamına uyğun olaraq yubiley tədbirlərinin respublika və beynəlxalq səviyyədə geniş şəkildə qeyd olunduğu deyib. Bildirib ki, AYB-nin Səməd Vurğun adına Yaradıcılıq Evi də müasir infrastrukturu ilə alimlərin, yazıçıların və yaradıcı ziyalıların görüşləri, elmi-mədəni tədbirləri və yaradıcılıq mühitinin inkişafı üçün əlverişli şərait yaradır. Əlavə edib ki, mərkəzin Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının idarəçiliyinə verilməsi dövlətin AHİK-ə göstərdiyi yüksək etimadın bariz nümunəsidir.

Çıxışının sonunda Musa Mirzəyev alim və ziyalılara elmi və yaradıcılıq fəaliyyətlərində yeni uğurlar arzulayıb, Xalq şairi Səməd Vurğunun zəngin irsinin gələcək nəsillər üçün də milli-mənəvi dəyərlərin və azərbaycançılıq ideyalarının təbliğində mühüm rol oynamaqda davam edəcəyinə əminliyini ifadə edib.

Sonra AMEA-nın Mərkəzi Elmi Kitabxanası tərəfindən Xalq şairi Səməd Vurğunun 120 illiyi münasibətilə hazırlanmış rəqəmsal məlumat bazasının təqdimatı keçirilib.

Daha sonra Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar "Səməd Vurğunun yaradıcılığında və fəaliyyətində sosial mədəni həyat" mövzusunda çıxış edərək bildirib ki, Səməd Vurğun Azərbaycan poeziyasının, milli ədəbi fikrin inkişafında misilsiz xidmətləri olan qüdrətli söz ustasıdır. Görkəmli şairin zəngin yaradıcılığı təkcə bədii-estetik xüsusiyyətləri ilə deyil, həm də humanizm və yüksək mənəviyyat ideyalarının təbliği baxımından bu gün də aktuallığını qoruyub saxlayır.

Sonda o, bu kimi tədbirlərin keçirilməsinin Səməd Vurğunun zəngin irsinin daha dərindən öyrənilməsi və milli-mədəni yaddaşın qorunması baxımından mühüm əhəmiyyət daşıdığını bildirib, tədbirin təşkilatçılarına təşəkkürünü ifadə edib.

Tədbirdə AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli "Elm və ədəbiyyat: Xalq şairi və akademiklik missiyası" mövzusunda məruzə ilə çıxış edərək Səməd Vurğunu XX əsrin və ümumən Azərbaycan ədəbiyyatının ən qüdrətli söz ustalarından biri kimi səciyyələndirib. Qeyd edib ki, Səməd Vurğun mürəkkəb ictimai-siyasi və ideoloji şəraitdə yaşayıb-yaratsa da, zamanın təsirlərindən uca duran, milli və bəşəri dəyərləri əks etdirən əsərləri sayəsində əbədiyyət qazanmış böyük sənətkardır.

AMEA prezidenti Səməd Vurğunun yaradıcılığının Azərbaycan poeziyasının, dramaturgiyasının və ədəbi fikrinin inkişafında mühüm mərhələni təşkil etdiyini bildirib. Onun sözlərinə görə, şairin "Azərbaycan" şeiri, "Vaqif" və "İnsan" dramları, eləcə də "Komsomol" və "Aygün" poemaları milli ədəbiyyatın qızıl fonduna daxil olan, bu gün də aktuallığını qoruyan qiymətli sənət nümunələridir. Bu əsərlər vətənpərvərlik, humanizm, azadlıq, ədalət və mənəvi dəyərləri tərənnüm etməklə yanaşı, zamanı qabaqlayan ideyaları ilə də seçilir.

Akademik İsa Həbibbəyli vurğulayıb ki, Səməd Vurğun təkcə böyük şair deyil, həm də görkəmli alim və ictimai xadim olub, ölkənin elmi-mədəni həyatına mühüm töhfələr verib. O, Səməd Vurğunun Azərbaycanın ilk Xalq şairi adına layiq görüldüyünü, eləcə də Azərbaycan SSR Elmlər Akademiyasının (indiki AMEA) 1945-ci ildəki 15 əsas təsisçisindən və ilk həqiqi üzvlərindən biri olduğunu xatırladıb.

Akademiya rəhbəri əlavə edib ki, şairin 1954-cü ildə Moskvada SSRİ Yazıçılarının II Qurultayında Sovet poeziyasına həsr olunmuş məruzəsi dərin elmi-nəzəri əhəmiyyətə malik olmaqla yanaşı, romantik ədəbiyyatın zəruriliyini cəsarətlə müdafiə edən mühüm çıxışlardan biri kimi qiymətləndirilə bilər.

Akademik İsa Həbibbəyli çıxışının sonunda Səməd Vurğun irsinin öyrənilməsi və təbliğinin milli-mənəvi dəyərlərin qorunması baxımından böyük önəm daşıdığını bildirib. O, bu kimi tədbirlərin keçirilməsini yüksək qiymətləndirərək Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyinə yaradılan şəraitə, göstərilən diqqətə və qarşılıqlı etimada görə təşəkkürünü ifadə edib.

Azərbaycan Mətbuat Şurasının sədri, Yazıçılar Birliyinin sədr müavini, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid çıxışında Səməd Vurğun adına Yaradıcılıq Evinin Azərbaycan ədəbi mühitində xüsusi yerə sahib olduğunu bildirib. Bu məkanın yaddaşlarda xoş xatirələrlə qaldığını qeyd edərək, burada müxtəlif illərdə gənc yazıçıların seminarlarının, ədəbi müzakirələr və yaradıcı görüşlərin keçirildiyini xatırladıb.

Tədbirdə, həmçinin Türkiyənin Erzincan Binəli Yıldırım Universitetinin professoru Ali Kafkasyalı və Pakistanın Lahor Dövlət Kollec Universitetinin Dil, İslam və Şərqşünaslıq fakültəsinin Urdu dili kafedrasının dosenti Almas Xanum çıxış edərək belə mötəbər tədbirdə iştirakdan məmnunluqlarını ifadə ediblər. Səməd Vurğunun yaradıcılığının təkcə Azərbaycanda deyil, bütün türk və Şərq ədəbi-mədəni məkanında mühüm yer tutduğunu vurğulayan qonaqlar görkəmli şairin zəngin ədəbi irsinin müxtəlif ölkələrdə də tədqiq olunduğunu və xalqlar arasında mədəni əlaqələrin möhkəmlənməsinə töhfə verdiyini bildiriblər.

Daha sonra AMEA əməkdaşlarının şeirləri səsləndirilib. Ədəbi-bədii tədbirdə Mərziyyə Nəcəfova "Azərbaycan", İbrahim Yusifli "Qazaxda Vurğunun ev muzeyində", Zəkulla Bayramlı "Xızı dağları" şeirlərini, Asya Əhmədova "Sən Vətənsən" poemasından bir hissəni ifa ediblər. Həmçinin Səməd Vurğunun şeirləri aşıq havalarının müşayiəti ilə təqdim olunub.

# İlk insan məskənlərindən biri olan Azıx mağarasını ziyarət

*AMEA-nın və Elm və Təhsil Nazirliyinin rəhbərliyi Azıx mağarasında aparılan tədqiqatlarla tanış olub*







**Azərbaycan Milli Elmlər Akademiyasının və Elm və Təhsil Nazirliyinin rəhbərliyi və nümayəndələri Qarabağda Kiçik Qafqaz dağlarının cənub-şərq yamacında, dəniz səviyyəsindən 900 metr yüksəklikdə yerləşən ilk insan məskənlərindən biri olan Azıx mağarasını ziyarət edib, burada beynəlxalq ekspedisiya tərəfindən aparılan arxeoloji qazıntı işləri ilə tanış olublar.**

Əvvəlcə qazıntı sahələrindən tapılmış eksponatlara və onların ilkin laborator analizlərinə baxış keçirilib.

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli, elm və təhsil nazirinin müavini İdris İsayev, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin direktoru Ülkər Səttarova, ETN Elm, ali və peşə təhsili şöbəsinin müdiri Turxan Süleyman və başqaları Azıx mağarasında aparılan qazıntı yerlərini gəzib və aparılan tədqiqatlar barədə ətraflı məlumat alıblar.

AMEA Arxeologiya və Antropologiya İnstitutunun direktoru, tarix üzrə fəlsəfə doktoru Fərhad Quliyev, Azıx beynəlxalq ekspedisiyasının rəhbəri, Almaniyada fəaliyyət göstərən Leiza İnstitutunun Traceologiya və Nəzarətli Eksperimentlər Laboratoriyasının (TraCEr) müdiri Joao Marreiros, Azıx ekspedisiyasının rəhbəri, Arxeologiya və Antropologiya İnstitutunun böyük elmi işçisi və Qarabağ Universitetinin nəzdində fəaliyyət göstərən Azıx arxeoloji tədqiqat və analiz laboratoriyasının müdiri Əjdər Babazadə Azıx mağarası tədqiqatlarının tarixi, 2023-cü ildən fəaliyyətə başlayan beynəlxalq ekspedisiyanın fəaliyyəti, ərazidən tapılan maddi-mədəniyyət nümunələri haqqında ətraflı məlumat veriblər.

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli Azıx beynəlxalq ekspedisiyasının üzvləri ilə son illərdə AMEA Rəyasət Heyətində keçirilən görüşlərindən danışaraq, bu il arxeoloji qazıntılarda iştirak edən xarici ölkə alimlərinin tərkibinin genişləndirildiyini və mühüm elmi nəticələrin əldə edildiyini bildirib. Elm tarixində ilk dəfə olaraq Azıx mağarasının bir neçə girişdən ibarət olduğu müəyyən edilib və ikinci girişdən daxil olmaqla mağaranın yeni istiqamətdə tədqiqinə başlanılıb. Aparılan tədqiqatların nəticələrini əks etdirən elmi məqalələrin dünyanın nüfuzlu elmi jurnallarında çap edilməsinin əhəmiyyətini vurğulayan akademik İsa Həbibbəyli birgə elmi ekspedisiyaların elm və təhsil sahəsində inteqrasiyanın genişləndirilməsi baxımından əhəmiyyətli olduğunu bildirib.

Elm və təhsil nazirinin müavini İdris İsayev, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin direktoru Ülkər Səttarova birgə elmi ekspedisiyanın işində ali məktəblərin müəllimləri və tələbələrinin iştirakının faydalı olduğunu qeyd edib, təkliflərini nəzərə çatdırıblar.

Azıx beynəlxalq arxeoloji ekspedisiyasının həmrəhbəri Joao Marreiros Avropa ölkələrində Azıx mağarasına bənzər qədim tarixə, böyük əraziyə və çoxqatlı mədəni təbəqəyə malik insan düşərgəsinə rast gəlinmədiyini bildirib, aparılan tədqiqatların dünya elmi üçün də əhəmiyyətli olduğunu ifadə edib.

Sonda beynəlxalq ekspedisiyanın üzvləri ilə xatirə şəkilləri çəkdirilib, arxeoloqlara hədiyyələr təqdim olunub.

Qeyd edək ki, 2023-cü ildən fəaliyyət göstərən Azıx beynəlxalq arxeoloji ekspedisiyasının işinə Azərbaycan alimləri ilə yanaşı, Almaniya, Portuqaliya, ABŞ, Danimarka, Türkiyə, İngiltərə, Polşa, Yunanıstan, Slovakiya, Pakistan, Fransa kimi ölkələrdən də tədqiqatçılar cəlb edilib. Eyni zamanda, Qarabağ Universiteti, Azərbaycan Dillər Universiteti, İngiltərənin Oksford Universiteti və Portuqaliaynın Algarve Universitetinin tələbə və mütəxəssisləri də ilk gündən qazıntı işləri və tədqiqatlarda yaxından iştirak edirlər.

## Akademik İsa Həbibbəyli Qəbələdə aparılan arxeoloji tədqiqatlarla tanış olub



**AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli Qəbələ Dövlət Tarix-Bədii Qoruğunda aparılan arxeoloji qazıntı işləri ilə tanış olub.**

Akademik İsa Həbibbəyli bildirib ki, UNESCO-nun Dünya İrsinin İlkin Siyahısına daxil edilmiş Qədim Qəbələ şəhəri Azərbaycanın, eləcə də dünya tarixinin öyrənilməsində xüsusi yeri olan bir abidədir. Azərbaycan xalqının qədim dövlətçilik və şəhərsalma mədəniyyətinə sahibliyini göstərən bu abidənin daim AMEA-nın prioritet tədqiqat mövzularından biri olduğunu deyən akademik İsa Həbibbəyli arxeoloji qazıntı sahələrində aparılan tədqiqat işlərini yüksək dəyərləndirib.

AMEA Arxeologiya və Antropologiya İnstitutunun İslam dövrü arxeologiyası şöbəsinin müdiri, Qəbələ Arxeoloji Ekspedisiyasının rəhbəri, tarix elmləri doktoru, professor Qafar Cəbiyev Qədim Qəbələnin Qala adlanan ərazisində cari dövrdə aparılan qazıntılar və onların ilkin elmi nəticələri barədə ətraflı məlumat verib.

Professor bildirib ki, Qafqaz Albaniyasının ilk paytaxtı olmuş Qədim Qəbələ şəhəri yerində cari mövsümdə III qazıntı sahəsində araşdırmalar davam etdirilib. Qazıntılar zamanı iri yonulmuş daşlardan inşa edilmiş saray tipli ictimai binanın qalıqları aşkar olunub. Üzə çıxarılan tikilinin uzunluğu 18 metr, hündürlüyü isə 1,8 metrdir. Tikilinin şərq istiqamətində davam etməsi onun daha böyük bir kompleksin tərkib hissəsi olduğunu ehtimal etməyə əsas verir. Tədqiqat aparılan 220 kvadratmetrlik sahədə erkən orta əsrlərdən XVIII əsrədək olan dövrü əhatə edən dörd tikinti qatı və döşəmə qalıqları qeydə alınıb. Bununla yanaşı, müxtəlif təyinatlı keramika nümunələri, o cümlədən şirli və şirsiz məişət qabları aşkar edilib. Professor Qafar Cəbiyev qeyd edib ki, yeni tapıntılar Qədim Qəbələ sakinlərinin məişətini, mədəniyyətini və sənətkarlıq ənənələrini öyrənmək, eləcə də şəhərin Azərbaycanın ictimai-siyasi və mədəni həyatındakı rolunu daha dərindən araşdırmaq baxımından mühüm əhəmiyyət daşıyır.

Sonra Qəbələnin arxeoloji irsinin tədqiqi, maddi mədəniyyət nümunələrinin qorunması və arxeoloji qalıqların konservasiyası ilə bağlı fikir mübadiləsi aparılıb.

Sonda AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli çıxış edərək arxeoloji tədqiqat sahələrinin daha da genişləndirilməsinin vacibliyini bildirib, müvafiq tövsiyə və tapşırıqlarını diqqətə çatdırıb.

Tədbirdə AMEA Arxeologiya və Antropologiya İnstitutunun direktoru, tarix üzrə fəlsəfə doktoru, dosent Fərhad Quliyev və ekspedisiya üzvləri də iştirak ediblər.

## Tarixi yerlər və abidələr

*VI Beynəlxalq Sulut Simpoziumu*



**İsmayıllı rayonunun Basqal qəsəbəsi və Sulut kəndində AMEA Arxeologiya və Antropologiya İnstitutu və "Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin təşkilatçılığı ilə görkəmli arxeoloq Fazil Osmanovun anadan olmasının 90 illiyinə həsr edilmiş "Tarixi yerlər və abidələr" VI Beynəlxalq Sulut Simpoziumu təşkil edilib.**

Simpozium arxeologiya, tarixi-memarlıq irsi, epiqrafika, muzey işi, mədəni irs turizmi, yerli icmalar və mədəni irsin davamlı inkişafı kimi müxtəlif istiqamətləri əhatə edib.

Simpoziumda AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, Təşkilat Komitəsinin sədri Fariz Xəlilli, Türkiyənin Mersin Arxeologiya Muzeyindən Funda Yüksel Özer və Fazil Osmanovun ailəsi adından oğlu Lətif Osmanov çıxış ediblər.

Açılış mərasimində Arxeologiya və Antropologiya İnstitutunun direktoru dosent Fərhad Quliyev Fazil Osmanovun elmi irsindən, Azərbaycan arxeologiyasının inkişafına verdiyi töhfələrdən və uzun illər ərzində apardığı tədqiqatların əhəmiyyətindən danışıb. O, Fazil Osmanovun elmi irsinin öyrənilməsi və gələcək nəsillərə çatdırılması ilə yanaşı, arxeoloqun ailəsinin onun xatirəsinə göstərdiyi diqqət və ehtiramı xüsusi qeyd edib. Fərhad Quliyev, həmçinin Fazil Osmanovun elmi irsinin sistemləşdirilməsi istiqamətində görülən işlərə, o cümlədən alimin seçilmiş əsərlərinin kitab halında nəşrə hazırlanmasına diqqət çəkib.

Akademik İsa Həbibbəyli isə Fazil Osmanovun, xüsusilə Qafqaz Albaniyasının arxeoloji irsinin tədqiqinə verdiyi töhfələrin Azərbaycan tarixşünaslığı və arxeologiyası üçün əhəmiyyətini vurğulayıb. Akademik son illərdə Azərbaycan arxeoloji tədqiqatların genişləndirilməsinin və elmi nəticələrin ictimaiyyətə çatdırılmasının əhəmiyyətindən bəhs edib. İsa Həbibbəyli simpoziumun Bakı ilə məhdudlaşmayaraq regionda, tarixi abidələr və arxeoloji irslə zəngin İsmayıllı rayonunda keçirilməsini də mühüm təşəbbüs kimi qiymətləndirib.

Simpozium "Fazil Osmanovun elmi irsi və Qafqaz Albaniyasının arxeologiyası", "Arxeoloji tədqiqatlar, tarixi yerlər və mədəni landşaft", "Tarixi-memarlıq, dini və epiqrafik irs", "Muzeylər, mədəni irs turizmi, yerli icmalar və mədəni irsin davamlı inkişafı" bölmələrindən ibarət olub.

Tədbir iştirakçıları üçün Sulut kəndində elmi-ekskursiya proqramı təşkil edilib.

Simpozium çərçivəsində ayrıca onlayn elmi proqram da hazırlanıb. Onlayn proqramda Fazil Osmanovun Azərbaycan arxeologiyasındakı rolu və muzey kolleksiyasından Nüydü sikkə dəfinəsinə, Bərdənin ilk orta əsr şəhər quruluşundan Qarabağın Alban dövrü dini abidələrinin turizm aspektlərinə, Şamaxının şəhər mədəniyyətindən muzeylərin beynəlxalq markalaşmadakı roluna və mədəni irsin müasir həyat tərzi ilə münasibətlərinə qədər müxtəlif mövzular təqdim edilib.

İkigünlük simpozium arxeoloqları, tarixçiləri, muzeyşünasları, memarlıq və mədəni irs üzrə mütəxəssisləri, ali məktəb və elmi müəssisələrin nümayəndələrini bir araya gətirərək Fazil Osmanovun elmi irsinin yenidən qiymətləndirilməsi, Azərbaycanın tarixi yerlərinin və abidələrinin tədqiqi, qorunması və cəmiyyətə təqdim olunması istiqamətində fikir mübadiləsi üçün elmi platforma yaradıb.

# AMEA-da XIV Beynəlxalq Altay Topluluqları Simpoziumu öz işinə başlayıb

## *Beynəlxalq Simpozium Azərbaycanda ilk dəfədir ki, keçirilir*





**Sentyabrın 9-da Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin binasında Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş XIV Beynəlxalq Altay Topluluqları Simpoziumu öz işinə başlayıb.**



"Altayşünaslığın dünəni, bugünü və sabahı" mövzusuna həsr edilmiş tədbir AMEA-nın Rəyasət Heyəti, AMEA Folklor İnstitutu və "Azərsun Holdinq" MMC-nin təşkilatçılığı, Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA), TÜRKSOY, Türk Tarix Qurumu, Beynəlxalq Türk Akademiyası və Xaricdəki Türklər və Əqrəba Topluluqları Başkanlığının (YTB) dəstəyi ilə keçirilir.

XIV Beynəlxalq Altay Topluluqları Simpoziumuna Azərbaycanla yanaşı, Türkiyə, Qırğızıstan, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Tacikistan, Monqolustan, Hindistan, Çin, Yaponiya, Şimali Makedoniya, Macarıstan, Almaniya və Rusiya Federasiyasından nümayəndələr qatılıb.

Tədbiri giriş nitqi ilə açan AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Altayşünaslıq üzrə beynəlxalq elmi toplantıların dünya türkologiya elminin inkişafına mühüm töhfələr verdiyini bildirib. O, uzun illər ərzində Azərbaycan alimləri ilə Altayşünaslıq və türkologiya sahəsində fəaliyyət göstərən elmi mərkəzlər arasında möhkəm əlaqələrin və əməkdaşlıq körpülərinin qurulduğunu qeyd edib, həmçinin ötən illərdə müxtəlif ölkələrdə keçirilən Altay Topluluqları Simpoziumlarında iştirak etdiyini xatırladıb. Akademik İsa Həbibbəyli bu ilki simpoziumda bir sıra ölkələrdən alim və tədqiqatçıların iştirakının tədbirin beynəlxalq elmi əhəmiyyətini daha da artırdığını vurğulayıb.

AMEA prezidenti simpoziumun 1926-cı ildə Bakıda, məhz bu tarixi məkanda keçirilmiş Birinci Türkoloji Qurultayın 100 illiyi münasibətilə təşkil olunmasının xüsusi tarixi və elmi məna daşıdığını bildirib. O, bir əsr öncə keçirilən həmin mötəbər qurultayda türk xalqlarının dili, tarixi, mədəniyyəti və elmi araşdırmalarının gələcəyi ilə bağlı aparılan müzakirələrin bu gün də öz aktuallığını qoruduğunu diqqətə çatdırıb. Akademik İsa Həbibbəyli qeyd edib ki, Birinci Türkoloji Qurultayın yaratdığı elmi ənənələrin davam etdirilməsi və müasir tədqiqatlarla zənginləşdirilməsi türkologiyanın inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir. Akademiya prezidenti bu baxımdan XIV Beynəlxalq Altay Topluluqları Simpoziumunun Azərbaycanla beynəlxalq elmi əməkdaşlığın daha da genişlənməsinə mühüm töhfə verəcəyinə inamını ifadə edib və tədbirin işinə uğurlar arzulayıb.

Daha sonra Altay Cəmiyyətləri Akademik Qurumunun prezidenti, İstanbul 29 May Universitetinin professoru İlhan Şahin çıxış edərək tədbirin Bakıda keçirilməsinin xüsusi önəm daşıdığını bildirib. O, Birinci Türkoloji Qurultayın 100 illiyinin bu simpozium üçün mühüm tarixi məna kəsb etdiyini qeyd edib. Professor İlhan Şahin yüz il əvvəl Bakıda bir araya gələn alimlərin türk xalqlarının dili, tarixi, mədəniyyəti və cəmiyyətləri ilə bağlı mühüm müzakirələr apardıqlarını xatırladıb.

Tədbirdə çıxış edən Beynəlxalq Türk Akademiyasının prezidenti akademik Şahin Mustafayev 1926-cı ildə Bakıda keçirilmiş Birinci Türkoloji Qurultayın türkologiya araşdırmaları tarixində yeni mərhələnin əsasını qoyduğunu deyərək bildirib ki, ötən 100 il ərzində türkologiya dil və ədəbiyyat araşdırmalarının hüdudlarını aşaraq tarix, arxeologiya, antropologiya, etnoqrafiya, incəsənət tarixi, genetika və rəqəmsal humanitar elmləri də əhatə edən geniş fənlərarası tədqiqat sahəsinə çevrilib.

Beynəlxalq Türk Akademiyasının prezidenti Altayın Türk dünyası üçün xüsusi əhəmiyyət daşıdığını, bu coğrafiyanın türk tarixinin, dillərinin və Avrasiyanın erkən mədəni proseslərinin öyrənilməsində mühüm istinad sahəsi olduğunu vurğulayıb. Altay araşdırmalarında ortaq irsə sahib çıxmaqla həmin irsi monopoliyaya almaq arasında mühüm fərqin olduğunu söyləyən akademik Şahin Mustafayev tarixi-mədəni irsin hər hansı bir xalqın və ya dövlətin müstəsna mülkiyyəti kimi təqdim edilməsinin doğru olmadığını qeyd edib.

Tədbirdə, həmçinin Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfirinin Mətbuat müşaviri Alptekin Cihangir İşbilir, Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova, Türk Tarix Qurumunun sədri prof. Haluk Selvi, AMEA-nın vitse-prezidenti v.i.e. akademik Gövhər Baxşəliyeva və keçmiş TİKA başkanı Halit Eren çıxış edərək Altay xalqlarının ortaq tarixi və mədəni irsinin dərindən öyrənilməsinin və qarşılıqlı təcrübə mübadiləsinin aparılmasının önəmini vurğulayıblar.

Qeyd edək ki, Beynəlxalq Altay Topluluqları Simpoziumu Azərbaycanda ilk dəfədir keçirilir. Dörd gün AMEA-nın Mərkəzi Elmi Kitabxanasında davam edəcək simpozium çərçivəsində 15 ölkəni təmsil edən alim və mütəxəssislərin ümumilikdə 121 məruzəsi dinləniləcək.

# AMEA ilə Bolqarıstan Elmlər Akademiyası arasında əməkdaşlıq genişlənir



**Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli Bolqarıstan Elmlər Akademiyasında olub.**

Bolqarıstan EA-nın prezidenti, müxbir üzv Evelina Slavçeva və həmin akademik qurumun Rəyasət Heyətinin üzvləri ilə keçirilən görüşdə danışıqların əsas mövzusunu ikitərəfli münasibətlərin genişləndirilməsi və hər iki ölkə üçün prioritet sahələrdə birgə elmi layihələrin həyata keçirilməsi təşkil edib. Tərəfdaşlığın əsas diqqət mərkəzində memarlıq, arxeologiya, etnologiya, folklor, incəsənət tarixi və digər humanitar sahələrdə birgə işlərin icra edilməsindən ibarət olacaqdır. Görüş zamanı Akademiyalar arasındakı mövcud çərçivə sazişinin yenilənməsi və əməkdaşlıq haqqında yeni sənədin imzalanması barədə razılığa gəlinib.

Bundan başqa, AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli Azərbaycan və Bolqarıstan Elmlər Akademiyalarının ortaq layihəsi kimi Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Folklor İnstitutu və Şəki Regional Elmi Mərkəzi tərəfindən hazırlanmış "Qabrovo yumoru və Şəki gülüşü" kitabını Bolqarıstan Elmlər Alkademiyasının Rəyasət Heyətinin üzvlərinə təqdim edib.

Görüşdə Bolqarıstan EA-nın vitse-prezidenti, professor Emanuel Mutafov və Biomüxtəliflik, Bioresurslar və Ekologfiya Departamentinin elmi katibi, professor İna Aneva çıxış edərək ortaq elmi layihələrin genişləndirilməsinin əhəmiyyətindən və perspektivlərindən bəhs ediblər.

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli Bolqarıstan EA-nın Ədəbi Tədqiqatlar İnstitutunun, Etnologiya və Folklor İnstitutunun, Akademkitabın iş təcrübəsi ilə tanış olub, Etnologiya və Folklor İnstitutunun təşkil etdiyi "Kosmoqoniya: mifologiyadan kosmonavtikayadək" sərgisinə baxıb.

# Qazaxıstan səfiri ilə görüş



**AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Qazaxıstanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Alim Bayellə görüşüb.**

AMEA Rəyasət Heyətində keçirilən görüşdə akademik İsa Həbibbəyli Azərbaycan və Qazaxıstan arasında bütün sahələrdə olduğu kimi elm istiqamətində də əməkdaşlıq əlaqələrinin yüksək səviyyədə davam etdirildiyini bildirib. Akademik İsa Həbibbəyli AMEA-nın Qazaxıstanın Elmlər Akademiyası və bir sıra ali təhsil müəssisələri ilə elmi əlaqələrinin mühüm nəticələr verdiyini xüsusi vurğulayıb, Akademiyanın bütün elmi tədqiqat institutlarında qardaş ölkə ilə bağlı əhəmiyyətli tədqiqatların aparıldığını diqqətə çatdırıb.

Qazaxıstanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Alim Bayel çıxış edərək ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin inkişaf etdirildiyini vurğulayıb, elm sahəsində də geniş əlaqələrin yaradıldığını bildirib. Elmi qurumlar arasında fəaliyyət istiqamətlərinin daha da genişləndirilməsinin əhəmiyyətinə toxunan səfir birgə layihə və tədbirlərin, elmi tədqiqatların perspektivindən danışıb.

Görüşdə elm sahəsində qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub, müvafiq razılıq əldə olunub.

Sonda xatirə hədiyyələri təqdim edilib.

# AMEA-nın prezidenti İsa Həbibbəyli Çində fəxri professor seçilib



**Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti akademik İsa Həbibbəyli Çin Xalq Respublikasının Hebey Dövlət Pedaqoji Universitetinin Elmi şurası tərəfindən həmin ali təhsil ocağının fəxri professoru seçilib. Bu barədə Çindən akademik İsa Həbibbəylinin ünvanına göndərilən məktubda bildirilib.**

Akademik İsa Həbibbəyli Hebey Dövlət Pedaqoji Universitetinin fəxri professoru adına Azərbaycan-Çin elmi əlaqələrinin inkişafında səmərəli fəaliyyətinə görə layiq görülüb.

2024-cü ildə AMEA, Hebey Sosial Elmlər Akademiyası və Hebey Dövlət Pedaqoji Universitetinin birgə təşkilatçılığı ilə "Xəzərdən Çin Səddinədək: ədəbiyyat, texnologiya və sosial həyat" mövzusunda beynəlxalq elmi konfrans keçirilib.

Akademik İsa Həbibbəyli bu yaxınlarda Hebey Sosial Elmlər Akademiyasının keçirdiyi Dünya İntellektuallarının XXIV Konfransında məruzə ilə çıxış edib.

Çinin Hebey bölgəsinin elm və ali təhsil qurumları ilə AMEA-nın elmi əlaqələri uğurla davam edir.

# AMEA ilə ICESCO-nun Bakı ofisi arasında anlaşma memorandumu hazırlanacaq

**AMEA-nın prezidenti akademik İsa Həbibbəyli İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) Bakı ofisinin rəhbəri Abdulhakeem Alsenanla görüşüb.**

ICESCO-nun Bakı ofisində keçirilən görüşdə Abdulhakeem Alsenan təmsil etdiyi qurumla Azərbaycan Milli Elmlər Akademiyası arasında müxtəlif elmi istiqamətlər üzrə qarşılıqlı əlaqələrin genişləndirilməsinin əhəmiyyətini diqqətə çatdırıb. Birgə elmi layihələrin təşkili, xüsusən də xəttatlıq üzrə, eləcə də qədim əlyazmaların mühafizə edilməsi sahəsində əlaqələrin genişləndirilməsinin önəminə toxunan Abdulhakeem Alsenan üzv ölkələrin təcrübəsindən yararlanmaq istiqamətində əməkdaşlığın qurulmasının faydalı olacağını vurğulayıb.



Görüşdə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli çıxış edərək Akademiyanın ICESCO-nun Bakı ofisi ilə elm sahəsində əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsinin əhəmiyyətini bildirib. AMEA rəhbəri birgə konfransların təşkili, müştərək elmi layihələrin həyata keçirilməsi, qədim əlyazma nüsxələrinin mühafizəsi, xəttatlıq üzrə treninqlərin təşkili və bir sıra digər istiqamətlər barədə fikir və mülahizələrini diqqətə çatdırıb.

Görüşdə AMEA-nın Əlyazmalar İnstitutunun direktoru akademik Teymur Kərimli və ICESCO-nun Bakı Regional Ofisinin direktor müavini Məryəm Qafarzadə çıxış edərək müzakirə üzrə təkliflərini səsləndiriblər.

Tərəflər aparılan müzakirələrdən sonra AMEA ilə ICESCO-nun Bakı Ofisi arasında Anlaşma Memorandumunun hazırlanması barədə razılığa gəliblər.

# AMEA-da Şəki Regional Elmi Mərkəzinin gələcək fəaliyyətinə həsr olunmuş müşavirə keçirilib

**AMEA-nın Rəyasət Heyətində AMEA-nın prezidenti akademik İsa Həbibbəylinin sədrliyi ilə Şəki Regional Elmi Mərkəzinin fəaliyyətinə həsr olunmuş müşavirə keçirilib.**

Müşavirədə çıxış edən akademik İsa Həbibbəyli regionlarda elmi fəaliyyətin dəstəklənməsi və alimlərin elmi potensialının inkişafının Akademiyanın prioritet istiqamətlərindən biri olduğunu bildirib və qeyd edib ki, bu, ümumilikdə regionların sosial-iqtisadi tərəqqisinə Azərbaycan elminin töhfəsidir. Akademik İsa Həbibbəyli vurğulayıb ki, çoxillik zəngin elmi ənənələri olan Şəki Regional Elmi Mərkəzinin fəaliyyətinin müasir dövrün çağırışlarına uyğun təkmilləşdirilməsi, humanitar və ictimai yönümlü tədqiqatların keyfiyyətinin yüksəldilməsi, regionun elmi potensialından daha səmərəli istifadə edilməsi və prioritet istiqamətlər üzrə tədqiqatların genişləndirilməsi qarşıda duran əsas vəzifələrdəndir.



AMEA-nın bütün elmi-tədqiqat müəssisələrində olduğu kimi, Şəki Regional Elmi Mərkəzində də müasir dövrün çağırışlarına və Akademiyanın yeniləşmə mərhələsinə uyğun islahatların aparılmasının əhəmiyyətini bildirən akademik İsa Həbibbəyli gənc alimlərin elmi fəaliyyətə daha fəal cəlb edilməsinin, ali təhsil müəssisələri və digər elmi qurumlarla əməkdaşlığın genişləndirilməsinin, beynəlxalq elmi əlaqələrin inkişaf etdirilməsinin vacibliyinə toxunub. AMEA rəhbəri qeyd edib ki, Elmi Mərkəzin fəaliyyətində Şəki-Zaqatala iqtisadi rayonunun zəngin tarixi-mədəni irsi, tarixi, ədəbiyyatı, arxeologiyası, folkloru, yumoru, təbii sərvətləri və biomüxtəlifliyinin tədqiqi prioritet istiqamətlərdən biri olaraq qalmalıdır.

Sonra çıxış edən Şəki Regional Elmi Mərkəzinin direktoru filologiya elmləri doktoru dosent Kamil Adışirinov bildirib ki, mərkəzdə regionun tarixinin, arxeologiyasının, etnoqrafiyasının, folklorunun, biomüxtəlifliyinin və təbii ehtiyatlarının öyrənilməsi istiqamətində elmi-tədqiqat işləri davam etdirilir. O, görülmüş işlər, əldə olunan elmi nəticələr, həyata keçirilən layihələr, eləcə də qarşıda duran vəzifələr barədə ətraflı danışaraq mərkəzin fəaliyyətinin daha da təkmilləşdirilməsi üçün nəzərdə tutulan tədbirləri diqqətə çatdırıb.

Sonda Şəki Regional Elmi Mərkəzinin gələcək fəaliyyət istiqamətləri, qarşıda duran prioritet vəzifələr və həyata keçiriləcək tədbirlər müzakirə olunub, müvafiq tapşırıq və tövsiyələr verilib.

Müşavirədə AMEA Rəyasət Heyəti aparatının Elm və təhsil şöbəsinin müdiri filologiya elmləri doktoru Sərxan Xavəri, İnsan resursları şöbəsinin müdiri filologiya üzrə fəlsəfə doktoru Aynur Mahmud və İctimaiyyətlə əlaqələr, mətbuat və informasiya şöbəsinin müdiri filologiya üzrə fəlsəfə doktoru Ağahüseyn Şükürov da çıxış edərək müvafiq fikir və mülahizələrini bildiriblər.

# *Akademik:* Rəqəmsal dövlətin mühüm missiyalarından biri də linqvistik suverenliyin təmin olunmasıdır

**Ölkəmizdə uğurla formalaşmaqda olan rəqəmsal dövlətin yeni arxitekturasının əsas tələblərindən biri də virtual mühitdə Azərbaycan dili ekosisteminin, başqa sözlə, ölkənin kibersuverenliyinin mühüm tərkib hissəsi kimi linqvistik suverenliyinin təmin olunmasıdır.**



Bu fikirləri açıqlamasında AMEA-nın vitse-prezidenti, Elm və Təhsil Nazirliyi İnformasiya Texnologiyaları İnstitutunun baş direktoru akademik Rasim Əliquliyev söyləyib. Alim qeyd edib ki, Azərbaycan dili yalnız cəmiyyətin gündəlik və rəsmi ünsiyyət vasitəsi kimi deyil, həm də virtual məkanda əsas rəqəmsal kommunikasiya vasitəsi kimi inkişaf etdirilməlidir. Azərbaycan dilinin təbii dilin emalı, süni intellekt, sosial şəbəkələr və digər rəqəmsal platformalar üçün tam funksional rəqəmsal dilə transformasiyası mühüm vəzifələrdən biridir.

Akademik Rasim Əliquliyev Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin yeni rəqəmsal arxitekturasının formalaşdırılması kontekstində təbii Azərbaycan dili ilə yanaşı, rəqəmsal Azərbaycan dilinin formalaşdırılması, onun bütün funksional imkanları və xidmətlərini əhatə edən vahid onlayn linqvistik ekosistemin yaradılmasının vacibliyini önə çəkib. Qeyd edib ki, belə bir ekosistemin formalaşdırılması rəqəmsal platformada insan-kompüter və kompüterlərarası qarşılıqlı əlaqənin Azərbaycan dili əsasında qurulması, ünsiyyət imkanlarının genişləndirilməsi, həmçinin bu dildən digər dillərə tərcümələrin keyfiyyətinin yüksəldilməsi üçün geniş imkanlar yaradacaq.

İnstitutun baş direktoru Azərbaycan dilinin təkcə milli kimliyin və mədəni irsin əsas daşıyıcısı olan ana dili kimi deyil, həm də rəqəmsal texnologiyaların, süni intellektin dili kimi inkişaf etdirilməsinin son dərəcə vacib olduğunu vurğulayıb: "Rəqəmsal dövlət mühitində bu təşəbbüs və ideyaların reallaşdırılması Azərbaycan dilinin qorunması və inkişafı ilə yanaşı, ölkənin linqvistik suverenliyinin daha da möhkəmləndirilməsinə şərait yaradacaq. Eyni zamanda, qlobal informasiya məkanında Azərbaycan dilinin kibertəhdidlərdən qorunması və onlara qarşı effektiv mübarizə mexanizmlərinin işlənilməsi üçün geniş imkanlar açacaq".

Alim, həmçinin onlayn mühitdə Azərbaycan dili ekosisteminin formalaşdırılması ilə bağlı həyata keçirilən tədqiqatlar haqqında məlumat verib. İnformasiya Texnologiyaları İnstitutunun alim və mütəxəssisləri tərəfindən bu ekosistemin mühüm komponentləri kimi Milli Terminoloji İnformasiya Sistemi, "Adlar və soyadlar dövlət informasiya sistemi" və Milli Transliterasiya Sisteminin yaradıldığını bildirib. Baş direktor hazırda institutun əməkdaşları tərəfindən süni intellekt və təbii dilin emalı texnologiyalarının tətbiqi ilə rəqəmsal platformada fərdlərin dil korpuslarının formalaşdırılması və identifikasiyası, Azərbaycan dilində olan mətnlərdə kibertəhlükələrin, o cümlədən dezinformasiyanın aşkarlanması və onlara qarşı mübarizə mexanizmlərinin işlənilməsi istiqamətində araşdırmalar aparıldığını diqqətə çatdırıb.

# Şərqşünaslıq İnstitutunda Qırğızıstanla bağlı elmi tədqiqatlar genişləndirilir

**Türk dövlətləri ilə elmi əlaqələrin inkişaf etdirilməsinə xüsusi diqqət yetirən AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda Qırğızıstanla bağlı araşdırmaların aparılması, bu ölkənin alimləri ilə elmi əlaqələrin qurulması istiqamətində mühüm işlər həyata keçirilir.**



Bunu açıqlamasında AMEA-nın vitse-prezident vəzifəsini icra edən, Şərqşünaslıq İnstitutunun direktoru akademik Gövhər Baxşəliyeva söyləyib.

"İnstitutda filologiya elmləri doktoru professor Lalə Əhmədova "XX əsrin 70-80-ci illəri romanlarında mənəvi-əxlaqi seçim problemi (Ç. Aytmatovun "Edam kötüyü" və Y. Səmədoğlunun "Qətl günü" romanları əsasında)" mövzusunda tədqiqat aparıb. O, institutunda "Çingiz Aytmatovun əsərlərində sosial-siyasi prioritetlər" mövzusunda elmi seminar da keçirib.

Filologiya elmləri doktoru, professor Elman Quliyev də qırğız ədəbiyyatının tədqiqinə mühüm töhfələr verib. O, "Müasir qırğız romanında cəmiyyət məsələlərinə yeni baxışın təzahür formaları" mövzusunda da araşdırma aparıb, həmçinin Çingiz Aytmatovun "Cəmilə", "Əlvida, Gülsarı!", "Ağ gəmi", "Gün var əsrə bərabər" əsərləri ilə bağlı tədqiqatlarının nəticələri ilə beynəlxalq elmi ictimaiyyət qarşısında çıxış edib. Şərqşünas-alim hazırda "Müasir qırğız bədii nəsrinin inkişaf problemləri (Ç. Aytmatov və Sultan Rayev yaradıcılıqları əsasında)" mövzusunda tədqiqat üzərində işləyir. O, ötən il Qırğızıstanın beynəlxalq "Çingiz Aytmatov" medalı ilə təltif edilib.

Şərqşünas-alimlərdən, həmçinin Təranə Həşimovanın Çingiz Aytmatov və Bəxtiyar Vahabzadə yaradıcılığında ideya paralellərinə, qırğız yazıçının Azərbaycan - Qırğızıstan ədəbi əlaqələrində yerinə, Elmira Məmmədovanın qırğız xalq dastanı "Manas"da vücudnamələrə, Dürdanə Cəfərlinin Qırğızıstanın nümunəsində milli quruculuqda İslam faktoruna dair araşdırmalarını da bu sahəyə töhfələri kimi qəbul etmək olar", - deyə institutun direktoru bildirib.

Müsahibimiz deyib ki, Azərbaycan şərqşünasları ilə Qırğızıstan alimlərinin qarşılıqlı əlaqələri də ildən-ilə inkişaf edir. Elmi konfranslarda iki ölkənin alimləri iştirak edirlər, şərqşünas alimlərimiz Qırğızıstanın, qırğız alimləri isə Şərqşünaslıq İnstitutunun elmi jurnallarında məqalələrlə çıxış edirlər.

YUBİLEY

# Alimlik, ziyalılıq və vətəndaşlıq örnəyi

**Azərbaycan elminin və tibb ictimaiyyətinin görkəmli simalarından biri, "Şöhrət" və "Şərəf" ordenli, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, SSRİ Tibb Elmləri Akademiyasının müxbir üzvü, Rusiya Elmlər Akademiyasının üzvü, Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı, tibb elmləri doktoru, professor Ədilə Əvəz qızı Namazovanın anadan olmasının 100 illiyi tamam olur. Bu əlamətdar yubiley onun Azərbaycan tibb elminə, təhsilinə və səhiyyəsinə, xalqımızın gələcək nəsillərinin sağlam böyüməsinə verdiyi misilsiz töhfələri yenidən dəyərləndirmək üçün mühüm bir fürsətdir.**



Ölkəmizin çoxəsrlik tarixində elə insanlar olmuşdur ki, onların həyat yolu müəyyən bir dövrün elmi, mənəvi və ictimai salnaməsində özünəməxsus yer tutur. Azərbaycanın görkəmli pediatr alimi, milli tibb elminin inkişafında müstəsna xidmətləri olan akademik Ədilə Əvəz qızı Namazova belə parlaq şəxsiyyətlərdəndir.

Azərbaycan coğrafiyasında qadınlar elm, mədəniyyət, təhsil, səhiyyə və ictimai həyatın inkişafında hər zaman xüsusi rol oynamışlar. Qadınlarımız ailə və mənəvi dəyərlərin qoruyucusu olmaqla yanaşı, milli intellektual potensialın formalaşmasına və cəmiyyətin tərəqqisinə mühüm töhfələr vermişlər. Ulu Öndər Heydər Əliyevin sözləri ilə desək: "Azərbaycan qadınları xalqımızın adət-ənənələrini, mədəniyyətini, elmini, intellektual potensialını yüksək səviyyədə təmsil etmişlər və bu, indi də belədir. Qadınlar dövlətimizin, dövlətçiliyimizin, müstəqilliyimizin, bu günümüzün, gələcəyimizin dayağıdır". Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də bu ənənənin müasir dövrdə davamını yüksək qiymətləndirərək qeyd etmişdir: "Tariximizin hər bir dövründə qadınlarımız cəmiyyətin sarsılmaz mənəvi dayağı olmuş, ölkəmizin bugünkü simasının müəyyənləşməsi üçün böyük fədakarlıqlar göstərmişlər".

Azərbaycan elminin XX əsrdə qazandığı mühüm nailiyyətlərdə qadın alimlərin də özünəməxsus payı vardır. Bu sırada Ədilə Namazovanın fəaliyyəti xüsusi miqyas və məna kəsb edir. Ədilə xanımın Yaxın Şərqdə pediatriya üzrə ilk qadın elmlər doktoru və ilk professor olması da xüsusi əhəmiyyət daşıyır.

Akademik Ədilə Namazova həkim, alim və pedaqoq fəaliyyətlərini bir-birindən ayırmırdı. Həkim kimi xəstəliyin müalicəsinə, alim kimi onun etiologiyasının və patogenezinin öyrənilməsinə, pedaqoq kimi isə əldə olunan elmi biliklərin yeni nəsil mütəxəssislərə ötürülməsinə xidmət edirdi. Bu baxımdan, Ədilə xanım Azərbaycan pediatriyasının elmi əsaslarının möhkəmləndirilməsinə və milli pediatriya məktəbinin formalaşmasına yönəlmiş uzunmüddətli bir missiyanın daşıyıcısı idi.

Ədilə Namazovanın şəxsiyyətinin böyüklüyü onun elmi nüfuzu ilə insani keyfiyyətlərinin vəhdətində idi. Həkimlik peşəsinin mahiyyətində dayanan mərhəmət, xəstəyə münasibətdə məsuliyyət, elmə sədaqət, müəllimlikdə tələbkarlıq və insanlara münasibətdə səmimiyyət onun şəxsiyyətində bir bütöv halında təcəssüm edirdi.

Ədilə xanımın həyat fəlsəfəsini ən dəqiq ifadə edən sözlər isə, bəlkə də, özünə məxsusdur: "Bu dünyanın varı-dövləti, hamısı boş şeydir. İnsana həyatda ancaq hörmət, cansağlığı, xeyirxahlıq, bir də məhəbbət lazımdır. Bu gün geriyə dönüb baxanda, həyat yoluma nəzər salanda peşmançılıq hissi keçirdiyim heç bir şey yoxdur. Həmişə bacardığım qədər xalqıma xidmət etməyə çalışmışam..." Ədilə xanımın övladı olmasa da, onun həkim kimi həyatına toxunduğu, sağlamlığına qovuşdurduğu və ümid verdiyi, ana qayğısı və mərhəməti ilə əhatə etdiyi uşaqların sayı minlərlədir.

Ədilə Namazova 1949-cu ildə Azərbaycan Dövlət Tibb İnstitutunun Pediatriya fakültəsini bitirdikdən sonra SSRİ Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunun (Moskva) pediatriya elminin dünya şöhrətli patriarxı, akademik G.N.Speranskinin rəhbərlik etdiyi Uşaq xəstəlikləri kafedrasının aspirantı olmuşdur. Ədilə xanım 1959-cu ildə həmin institutda tibb elmləri namizədi, 1965-ci ildə isə SSRİ Tibb Elmləri Akademiyasının Pediatriya İnstitutunda tibb elmləri doktoru elmi dərəcəsi almaq üçün dissertasiyalarını müdafiə etmiş, 1967-ci ildə SSRİ Ali Attestasiya Komissiyasının qərarı ilə professor elmi adına layiq görülmüşdür.

Görkəmli pediatr alim və istedadlı pedaqoq 1971-ci ildə SSRİ Tibb Elmləri Akademiyasının müxbir üzvü, 1983-cü ildə Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü, 1993-cü ildə isə Rusiya Tibb Elmləri Akademiyasının (2003-cü ildən Rusiya Elmlər Akademiyasının) həqiqi üzvü seçilmişdir.

Akademik Ədilə Namazovanın elmi fəaliyyətinin əsas istiqamətlərini uşaqlarda kəskin revmatizm zamanı ürək-damar sisteminin funksional vəziyyətinin öyrənilməsi, anadangəlmə ürək qüsurlarının diaqnostikası və diferensial diaqnostikası, bu qüsurlar zamanı cərrahi əməliyyatlara göstəriş və əks-göstərişlərin müəyyənləşdirilməsi, uşaqlarda hipertoniya və hipotoniya xəstəliklərinin epidemiologiyasının, klinik əlamətlərinin və təzahür formalarının öyrənilməsi, habelə onların profilaktikası və müalicəsi üsullarının işlənib hazırlanaraq səhiyyə praktikasına tətbiqi təşkil etmişdir.

Akademik Ədilə Namazova bu istiqamətlərin hər biri üzrə mühüm elmi-nəzəri və klinik-praktik nəticələr əldə etmiş, tədqiqatlarının əsas nəticələrini 500-ə yaxın elmi əsərdə, o cümlədən 32 monoqrafiyada əks etdirmişdir. O, həmçinin 5 ixtiranın müəllifi olmuşdur. Ədilə xanım Azərbaycan tibb elmini dünyanın müxtəlif ölkələrində keçirilən onlarla mötəbər elmi tədbirdə - konqres, qurultay və simpoziumlarda uğurla və layiqincə təmsil etmişdir.

Ədilə xanım həyatının son illərində biotibbi etika problemləri sahəsində də səmərəli fəaliyyət göstərmiş, bu istiqamətdə ölkəmizdə ilk dəfə Azərbaycan və ingilis dillərində sanballı əsər və bir neçə kitab nəşr etdirmiş, həmçinin müvafiq tədris vəsaitləri, universitet və kollec tələbələri üçün təhsil proqramları hazırlamışdır.

Akademik Ədilə Namazovanın Azərbaycan Milli Elmlər Akademiyası Biologiya və Tibb Elmləri Bölməsinin (BTEB) üzvü kimi fəaliyyəti də xüsusi qeyd olunmalıdır. Ədilə xanım AMEA-nın və BTEB-in iclaslarında, elmi tədbirlərində fəal iştirak edir, müzakirə olunan məsələlərlə bağlı daim öz fikirlərini bildirir, dəyərli təklif və təşəbbüslərlə çıxış edir, həmkarlarından məsləhət və tövsiyələrini əsirgəmirdi. Elmi və elmi-təşkilati tədbirlərə böyük məsuliyyətlə yanaşan akademikin bu sahədəki xidmətlərinin 2016-cı ildə AMEA-nın "Akademik Mirəsədulla Mirqasımov adına mükafat"na layiq görülməsi ilə qiymətləndirilməsi də təsadüfi deyildi.

Ədilə xanımın çoxşaxəli fəaliyyətində pedaqoji irsinin xüsusi yeri vardır. O, 1965-2020-ci illərdə Azərbaycan Tibb Universitetinin II Uşaq xəstəlikləri kafedrasına rəhbərlik etmiş, yüksək tələbkarlığı, dərin biliyi və təşkilatçılıq bacarığı ilə seçilən müəllim kimi həmkarlarının və tələbələrinin dərin hörmətini qazanmışdır. Ədilə Namazova pedaqoji fəaliyyəti dövründə 12 tibb elmləri doktoru və 72 fəlsəfə doktoru yetişdirmiş, bununla da pediatriya sahəsində öz elmi məktəbini formalaşdırmışdır. Onun yetirmələri bu gün Azərbaycanın hüdudlarından kənarda, uşaqların sağlamlığının qorunması və pediatriyanın inkişafı istiqamətində uğurla çalışırlar.

Ədilə xanımın ictimai-siyasi fəaliyyəti də zəngin və çoxşaxəli olmuşdur. 1980-ci illərin sonlarında o, SSRİ Ali Sovetinin deputatı, Azərbaycan və Orta Asiya Qadınlar Komitəsinin sədri seçilmişdir. Ali Sovetin iclaslarında erməni deputatların Azərbaycana qarşı mövqeyinə verdiyi əsaslandırılmış və tutarlı cavablar onun həm həmin deputatların, həm də onları dəstəkləyən qüvvələrin təhdidləri ilə üzləşməsinə səbəb olmuşdur. 20 Yanvar faciəsindən sonra Moskvada keçirilən SSRİ Ali Sovetinin növbəti sessiyasında və SSRİ-nin rəhbəri Mixail Qorbaçovla görüşü zamanı Ədilə Namazova Azərbaycan həqiqətlərini açıq və cəsarətlə səsləndirmiş, ittifaq rəhbərliyinin ölkəmizə qarşı siyasətini kəskin şəkildə tənqid etməkdən çəkinməmişdir.

Ədilə Namazovanın Ümummilli Lider Heydər Əliyevlə münasibətlərinə və onun elm və tibb sahəsindəki fəaliyyətinə Böyük Azərbaycanlının göstərdiyi diqqətə ayrıca toxunmaq lazımdır. Ulu Öndər Ədilə xanımın xidmətlərini daim yüksək qiymətləndirir, onu Azərbaycanda elmi pediatriyanın banisi kimi dəyərləndirirdi. 1976-cı ildə Heydər Əliyev Ədilə Namazovanı qəbul edərək ölkədə tibb sahəsində mövcud vəziyyət və problemlərlə bağlı onun fikirlərini öyrənmişdi. Ədilə xanım tibb elminin müəyyən sahələrində elmlər doktorlarının sayının çox az olmasını, elmi-tədqiqat institutlarının isə üçüncü kateqoriyaya aid edilməsini əsas problemlər sırasında göstərmişdi. Heydər Əliyev bu məsələlərin hər ikisinin həlli istiqamətində qısa müddətdə ciddi tədbirlər həyata keçirmişdi. Tibb elminin müxtəlif istiqamətləri üzrə 30-a yaxın gənc elmlər namizədi əməkhaqları saxlanılmaqla Moskva, Leninqrad və Kiyevdəki aparıcı elmi müəssisələrə ezam olunmuş, 4-5 il sonra onların hamısı elmlər doktoru kimi Azərbaycana qayıtmışdı. Bununla yanaşı, görüşdən az sonra respublikada fəaliyyət göstərən tibb elmi-tədqiqat institutlarının hamısının birinci kateqoriyaya keçirilməsi təmin edilmişdi. Bu qərar həmin müəssisələrin maddi-texniki təminatının yaxşılaşdırılmasına, əməkdaşların əməkhaqlarının artırılmasına və elmi tədqiqatların aparılması üçün daha əlverişli şəraitin yaradılmasına imkan vermişdi. Ədilə Namazova sonralar da tez-tez xatırlayırdı ki, kadr hazırlığı istiqamətində apardığı işlərdə görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyeva ona daim dəstək göstərmişdir.

1994-cü ildə Ulu Öndər Naxçıvan Dövlət Universitetinin nəzdində Tibbi-pediatriya fakültəsinin yaradılması təşəbbüsünə Ədilə Namazovanı da cəlb etmiş və bu mühüm işin təşkilini ona həvalə etmişdi. Ədilə xanım bu vəzifəni böyük həvəslə həyata keçirərək ilk növbədə universitetdə zəngin tibbi kitabxananın yaradılmasını təmin etmiş, tədris proqramları hazırlamış, il ərzində bir neçə dəfə Naxçıvana səfər edərək burada elmi və tibbi mövzularda mühazirələr oxumuşdu. Göstərdiyi xidmətlər nəzərə alınaraq akademik Ədilə Namazova bu gün də Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin "Mənəvi Anası" kimi böyük ehtiramla xatırlanır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva da Ədilə Namazovanın şəxsiyyətinə, həkimlik və elmi fəaliyyətinə, eləcə də yüksək insani keyfiyyətlərinə daim böyük hörmət və ehtiramla yanaşmışlar.

Akademik Ədilə Namazovanın çoxsaylı dövlət mükafatları sırasında Azərbaycan SSR-in Dövlət Mükafatını (1981), "Əməkdar elm xadimi" fəxri adını (1982), Azərbaycan Respublikasının "Şöhrət" (1996) və "Şərəf" (2011) ordenlərini, "Azərbaycan Respublikası Prezidentinin Fəxri Diplomu"nu (2016) xüsusi qeyd etmək lazımdır.

Azərbaycan pediatriya elminin görkəmli nümayəndəsi, akademik Ədilə Namazova 2021-ci ilin dekabrında, ömrünün 94-cü ilində vəfat etmişdir. Taleyin xoş bir qisməti idi ki, Ədilə xanım ömrünün sonunda da olsa, doğma Qarabağın, o cümlədən əziz Ağdamının işğaldan azad olunmasının sevincini yaşadı, bu böyük tarixi qələbəni Azərbaycan Ordusunun qəhrəmanlığına və Ali Baş Komandanın rəhbərliyinə minnətdarlıq hissi ilə qarşıladı. Əminik ki, bu gün Qarabağda, xüsusilə doğma Ağdamda aparılan genişmiqyaslı quruculuq işləri, şəhərin yenidən dirçəldilməsi və çiçəklənməsi Ədilə xanımın vətən sevgisi ilə yoğrulmuş əziz xatirəsinə də nur saçır.

Ədilə Əvəz qızı Namazovanın mənalı həyat yolu bir daha sübut edir ki, əsl alim əldə etdiyi bilik və zəngin təcrübəni insanın, cəmiyyətin və gələcək nəsillərin rifahına yönəldə bildiyi zaman öz missiyasını layiqincə yerinə yetirmiş olur. Ədilə Namazovanın şəxsiyyətinin və elmi irsinin böyüklüyü də məhz bu vəhdətdə - elmə sonsuz sədaqətində, həkimlik peşəsinə yüksək məsuliyyətlə yanaşmasında, pedaqoji fəaliyyətində göstərdiyi fədakarlıqda və insanlara bəslədiyi dərin məhəbbətdə öz əksini tapır.

Ömrünü elmə, təbabətə və insanlara xidmətə həsr etmiş, Azərbaycan pediatriyasının inkişafında müstəsna xidmətləri ilə silinməz iz qoymuş akademik Ədilə Namazovanın adı bundan sonra da böyük alim, mahir həkim, qayğıkeş müəllim və alicənab ziyalı kimi ehtiramla anılacaqdır. Onun yaratdığı elmi məktəb, yetişdirdiyi mütəxəssislər və zəngin elmi irs alim ömrünün işığını gələcək nəsillərə daşıyaraq daim yaşayacaqdır.

***İradə HÜSEYNOVA***
***AMEA-nın vitse-prezidenti,***
***AR ETN Molekulyar Biologiya İnstitutunun direktoru v.i.e., akademik***

# Azərbaycan elminə ağır itki üz verib

**Azərbaycanın görkəmli geofizik alimi, Əməkdar elm xadimi, AMEA-nın həqiqi üzvü Pərviz Məmmədov 7 sentyabr 2026-cı il tarixində 89 yaşında vəfat etmişdir.**



Məmmədov Pərviz Ziya oğlu 12 yanvar 1937-ci ildə Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Neft və Kimya İnstitutunu (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) mühəndis-geofizik ixtisası üzrə bitirmişdir (1959).

O, 1967-ci ildə "Seysmik dalğaların spektral analizinin effektivliyi" mövzusunda geologiya-mineralogiya elmləri üzrə namizədlik, 1992-ci ildə "Cənubi Xəzər Meqaçökəkliyinin çöküntü qatının geoloji quruluşunun seysmostratiqrafik tədqiqi" mövzusunda doktorluq dissertasiyaları müdafiə etmiş, 1993-cü ildə professor elmi adı almışdır. 2001-ci ildə AMEA-nın müxbir üzvü, 2014-cü ildə isə AMEA-nın həqiqi üzvü seçilmişdir.

P.Məmmədov əmək fəaliyyətinə 1959-cu ildə Azərbaycan Neftçıxarma üzrə Elmi tədqiqat İnstitutunda texnik-operator vəzifəsindən başlayaraq ardıcıl olaraq böyük radiotexnik, mühəndis-geofizik, böyük mühəndis vəzifələrində işləmişdir. P.Məmmədov 1958-1966-cı illərdə keçmiş ÜİET Geofizika İnstitutunun Azərbaycan filialında böyük mühəndis, elmi işçi vəzifələrində işləmişdir. O, 1968-ci ildən Azərbaycan Dövlət Neft Akademiyasının Geofiziki kəşfiyyat üsulları kafedrasında assistent, dosent, professor, kafedra müdiri, elmi işlər üzrə prorektor, rektor işləmişdir. Vəfatına qədər Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin geofizika kafedrasının məsləhətçi professoru və ETN-nin Geologiya İnstitutunun şöbə rəhbəri vəzifələrində işləmişdir.

P.Məmmədov beynəlxalq aləmdə tanınmış geofizik alimlərdən olmuşdur. O, geofizikada ilk dəfə seysmik dalğaların spektral analizinin geoloji effektliyini tədqiq etmiş, keçmiş SSRİ-də dalğaların dinamik xassələrinin geofiziki interpretasiyada səmərəsini əsaslandıran ilk tədqiqatçılardan biri olmuşdur. 1980-1990-cı illərdə neftli-qazlı çöküntüləri aşkarlamaq imkanı verən "Seysmostratiqrafiya" üsulunun inkişafında və Cənubi Xəzər dibinin və çöküntü qatının öyrənilməsində onun elmi nailiyyətləri istər keçmiş SSRİ məkanında, istərsə də ABŞ və Avropa geofizikləri tərəfindən yüksək qiymətləndirilmişdir. O, Cənubi Xəzər meqaçökəkliyinin iyerarxiyasını öyrənmiş, dənizdə bir neçə qeyri-antiklinal tipli neft-qaz yatağı aşkarlamış və istehsalata tövsiyə etmiş, bir sıra xarici şirkətlərin sifarişilə elmi tədqiqatlar aparmışdır. Beynəlxalq elmi layihələr üzrə elmi tədqiqatların rəhbəri və icraçısı olmuşdur.

P.Məmmədov 4 elmi jurnalın redaksiya heyətlərinin üzvü idi. Amerika-Azərbaycan Elmin İnkişafı Fondunun (CRDF), ARDNŞ-in Elm Fondunun eksperti, AMEA Yer Elmləri Bölməsinin Elmi şurasının üzvü, ETN-nin Geologiya İnstitutunun nəzdindəki dissertasiya şurasının sədr müavini, ADNSU-da Magistr İxtisaslaşmış Şurasının sədri idi.

P.Məmmədov Beynəlxalq Geofizika Cəmiyyətinin, Amerika Neftçi-Geoloqlar Assosiasiyasının, Avropa Geoelmləri Mühəndisləri Assosiasiyasının üzvü, Beynəlxalq Mühəndislər Akademiyasının (Rusiya) müxbir üzvü, eləcə də Beynəlxalq elmlər akademiyasının (İnsbruk, Avstriya) həqiqi üzvü olmuşdur.

P.Məmmədov 240-dan artıq elmi əsərin, 1 monoqrafiyanın müəllifi idi.

P.Məmmədovun rəhbərliyilə 3 elmlər doktoru və 14 fəlsəfə doktoru hazırlanmışdır. 2 elmlər doktorunun elmi məsləhətçisi və 2 fəlsəfə doktorunun elmi rəhbəri idi.

P.Məmmədovun adı Avrasiya Geofiziklər Assosiasiyasının qərarı ilə (2005) geofizika elminin inkişafında nailiyyətlərinə görə "Rusiyanın görkəmli geofizikləri" ensiklopediyasına daxil edilmişdir. O, "Görkəmli geofizik S.Q.Komarov" adına medalla (2010) təltif olunmuş ilk azərbaycanlı alimdir. AR Təhsil Nazirliyinin və AMEA Rəyasət Heyətinin Fəxri fərmanlarına, AMEA-nın akademik M.Əliyev adına mükafatına (2016) layiq görülmüş, "Heydər Əliyevin 100 illiyi (1923-2023)" yubiley medalı (2024) ilə təltif olunmuşdur.

Akademik Pərviz Məmmədov zəngin elmi irsi, yüksək ziyalılığı, prinsipiallığı və insanpərvərliyi ilə həmkarlarının, tələbələrinin və onu tanıyan hər kəsin dərin hörmətini qazanmışdır. Onun əziz xatirəsi Azərbaycan elmi ictimaiyyətinin yaddaşında daim yaşayacaq.

Allah rəhmət eləsin!

***AMEA Rəyasət Heyəti***

# İlandağ daş salnaməsinin sirri açılır

*(Əvvəli qəzetin 24 iyul 2026-cı il tarixli nömrəsində)*

## Mirjo Salvini İlandağ kitabəsi haqqında

1998-ci ildə Mirjo Salvininin İlandağ kitabəsindən bəhs edən elmi məqaləsi dərc olunur. Məqalənin orijinal mətninin Azərbaycan dilinə tərcüməsində qeyd olunur:

"Erməni alimləri tərəfindən bu yaxınlarda dərc edilmiş Naxçıvan Muxtar Respublikasının Culfa rayonundakı Ocasar-İlandağdan olan Urartu qaya yazısı əlavə tədqiqat tələb edir. Mətn zəif qorunub saxlanılmışdır və mövcud fotoşəkillər yaxşı çəkilməmişdir. Buna baxmayaraq, hesab edirəm ki, mətnin yenidən oxunuşu və təhlilindən daha çox şey əldə etmək olar. Buradakı transkripsiyada təklif olunan bir çox sapmalar - transkripsiya konvensiyaları və yeni oxunuşlarla bağlı iradlarım - məqalələri çapa getməzdən əvvəl mənim tərəfimdən müəlliflərə çatdırılmışdı; lakin onlar bunlardan istifadə etməməyi seçdilər. Lakin indiki iş yalnız erməni həmkarların mühüm hazırlıq işləri sayəsində ortaya çıxa bildi; buna görə də onlara səmimi-qəlbdən təşəkkür edilir. Tapıntı şəraiti və abidənin xüsusiyyətləri haqqında bütün məlumatlar üçün məqaləmdə istinad edilən əsərə istinad edirəm. Fotoşəkillər burada yalnız təkrarən təqdim olunur. Yeni bir avtoqraf üçün isə hələlik lazımi etibarlılıq çatışmır, bunu yalnız yerində kollasiya (tutuşdurma) təmin edə bilər".

Daha sonra Mirjo Salvini 2008-2018-ci illərdə nəşr olunan "Corpus dei Testi Urartai" cildliyində İlandağ qayaüstü mixi kitabədən bəhs edir.

Beləliklə, Urartu abidələrinin elektron kataloqunda (cCTU A03-08) kodu ilə qeydə alınan İlandağ abidəsi bir neçə mənbəyə istinad edilərək göstərilib.

Kataloqda İlandağ abidəsinin Mirjo Salvinidən sonra "Herit Kahanot mətnləri korpusu: rəqəmsal nəşr və mətnin tarixi təhlili" layihəsinin elmi rəhbəri Birgit Kristiansen tərəfindən uyğunlaşdırılıb yenidən işləndiyi və ingilis dilinə tərcümə edildiyi bildirilir.

Göründüyü kimi, AMEA Naxçıvan Bölməsinin Tarix və Etnoqrafiya İnstitutunun istinad etdiyi italyan alim Mirjo Salvini Naxçıvanda tapılan İlandağ kitabəsinin tərcüməçisi deyil. O, məqaləsində yalnız erməni alimlərinin foto və avtoqrafiyasına əsaslanıb. Məhz abidənin yenidən araşdırılmasını və ona təqdim olunan transkripsiya ilə tutuşdurulmasını tövsiyə edir. Bu fakt abidənin AMEA tərəfindən yenidən tədqiqini və araşdırılmasını zərurətə çevirməkdə, tarixi abidələrimizə yeni baxış və yanaşmanı, bu sahədəki mütəxəssis hazırlığını gündəmə gətirməyi tələb edir.

## Yenə erməni saxtakarlığı...

Erməni mənbələri İlandağ mixi yazısını hələ 1988-ci ildə geoloq-arxeoloq Valeri İqumnovun tapdığını və tədqiqata cəlb etdiyini yazırlar.

Valeri İqumnov 1989-cu ildə bu əraziyə gələrək abidənin fotoşəkillərini çəkib, yenidən oxumağa cəhd edib. Bu sahədəki araşdırma 1996-cı ildə "An Urartian Cuneiform Inscription from Ojasar-Ilandagh, Nakhichevan" adı ilə SMEA jurnalının 38-ci sayında işıq üzü görür. 1997-ci ildə "Tarix-filologiya" jurnalının 1-ci nömrəsində V.A.İqumnov, Q.Q.Qaraqözyan və S.Q.Aznauvuryan imzası ilə "Odzasar mixi yazısı" adlı məqalə yenidən dərc olunur. Məqalədə mətnin koordinatları, tərcüməsi və məzmunu, eləcə də interpretasiyası təqdim olunub. Araşdırmada qeyd olunub ki, mixi yazı b.e. əvvəl XIX əsrə, daha dəqiq 820-ci ilə aiddir. Mətn İşpuini tərəfindən Menuanın əmri əsasında tərtib olunub.

Erməni alimlər bu qənaətə gəlirlər: Arçi və Ayanian şəhərlərinin fəthi Urartunun ərazi genişləndirmə siyasətinə dəlalət edir. "Fəth edildi" və "məhv edildi" sözləri Urartu hərbi qələbəsini güc nümayişi kimi vurğulayır. Qələbədən sonra Haldi tanrısının şərəfinə kitabənin ucaldılması, hərbi uğuru ilahi himayə ilə əlaqələndirən Urartu ənənəsinin xarakterik xüsusiyyətidir. Haldi Urartuda ali tanrı və müharibə tanrısı idi və onun kultu kral hakimiyyətinin legitimliyini gücləndirmək üçün mühüm vasitə kimi xidmət edirdi. Fəth edilən ərazilərdə xüsusi bir ritual - Haldi və onun "həyat yoldaşı"na qurban kəsmək - ölkəyə siyasi nəzarət aləti kimi xidmət edən Urartu dini sistemini yaradırdı".



*Foto 1989-cu ildə V.İqumnov tərəfindən çəkilib.*

Beləliklə, 1988-ci ildən erməni araşdırmalarına cəlb edilən İlandağ kitabəsinin erməni alimlərinin "tərcümə" edərək dünyaya elmi mühitinə qədim erməni abidəsi kimi təqdim etmələri, urartuluların yerli əhalini qovması və bu "qələbə" münasibətilə Bulxada ("İlandağ") tanrıya qurban kəsilməsi faktı ilə əlaqələndirilməsi ermənilərin tarixi saxtalaşdırmaq cəhdləridir. Təəssüf ki, bu genişmiqyaslı siyasət dünyanın ən nüfuzlu urartuşünas alimi Mirjo Salvininin tədqiqatlarından siyasi vasitə kimi istifadə olunaraq tarixin təhrifinə və əsl həqiqətin gizlədilməsinə səbəb olmuşdur.

Əlbəttə, erməni tədqiqatçıları mətni oxuyarkən mixi işarələri dəyişə bilməzlər də, mətnin şərhində və coğrafi adların mənimsənilməsində ciddi təhriflərə yol verə bilərlər. Məsələn, mətndəki qədim coğrafi adları süni şəkildə erməni dilindəki sözlərlə bağlamağa çalışır və ya ümumilikdə, Urartu mədəniyyətini, bütövlükdə, "qədim erməni mədəniyyəti" kimi qələmə verməyə cəhd edirlər. Halbuki dilçilik elmi Urartu dilinin erməni dili ilə heç bir qohumluğu olmadığını çoxdan sübut edib.

## Urartu və Tanrı Haldinin "erməniləşdirilməsi"

İlandağ qayaüstü kitabəsində şəninə qurbanlar kəsilən Tanrı Haldi qədim Urartu panteonunda (tanrılar sisteminin) ən uca, ali və mərkəzi ilahidir. Qeyd edək ki, Urartu dini sistemində rəsmi olaraq "Tanrılar üçlüyü" (triada) mövcud idi: Haldi (ali tanrı), Teişeba (fırtına və müharibə tanrısı) və Şivini (günəş tanrısı). Bu üçlük arasında Haldi mütləq hakimiyyətə sahibdi. Haldi, hər şeydən əvvəl, dövlətin, mərkəzi hakimiyyətin və kralın şəxsi himayədarı idi. Urartu kralları öz fərmanlarına və hərbi yürüş hesabatlarına deməl olar ki, həmişə eyni standart şablonla başlayırdılar: "Tanrı Haldinin qüdrəti (lütfü) sayəsində... "Krallar öz hərbi qələbələrini və işğallarını öz adlarına deyil, birbaşa Tanrı Haldinin adına yazırdılar. İnanca görə, müharibəni kral yox, kralın önündə gedən Tanrı Haldi və onun "müqəddəs silahı" qazanırdı.

Maraqlıdır ki, Haldi xalis Urartu mənşəli tanrı deyil. Onun sitayiş mərkəzi, Urartunun paytaxtı Van şəhəri deyil, daha cənubda - indiki İran, İraq və Türkiyə sərhədlərinin kəsişməsində yerləşən, Aşşur mənbələrində Musasir (Urartu dilində Ardini) adlandırılan qədim Hurri şəhər-dövləti idi. Urartu elitası krallığı qurarkən bu qədim Hurri tanrısını imperiyanın rəsmi və mərkəzi ideoloji fiquruna çevirmişdilər.

Qədim sənət abidələrində, tunc kəmərlərdə və divar rəsmlərində Haldi, adətən, digər Yaxın Şərq tanrılarından fərqli olaraq, çox vaxt əzəmətli bir şirin (bəzən qanadlı şirin) üzərində ayaq üstə dayanmış vəziyyətdə təsvir edilirdi. Bu, onun heyyəmi gücə və regional liderliyə nəzarətini simvolizə edirdi. Əlində, çox vaxt qüdrət rəmzi olan nizə, ox-yay və ya alovlar tuturdu. Onun xanımı, Urartu panteonunun baş ilahəsi Arubani (bəzi yerli mətnlərdə isə sadəcə "Haldinin xanımı") idi.

Haldiya sitayiş edilən məbədlər memarlıqda "Susi" tipli məbədlər adlanır. Bu dördbucaqlı planlı, künclər qüllə kimi yuxarıya doğru ucalan və divarları son dərəcə qalın olan qala-məbədlər idi. Məbədlərin qarşısında Tanrı Haldiyə qurban kəsilən heyvanların qanı üçün xüsusi daş kanallar və qurban kəsmə rituallarının qaydalarını göstərən kitabələr ucaldılırdı.

Erməni tarixşünaslığının Tanrı Haldini və bütövlükdə Urartu panteonunu erməni mənşəli hesab etməsinin arxasında siyasi-ideoloji amillər və "tarixi varislik" yaratmaq cəhdləri dayanır. Beynəlxalq dilçilik və tarix elmi Urartu dilinin erməni dili ilə heç bir qohumluğu olmadığını, Haldinin isə qədim Hurri tanrısı olduğunu qəbul etdiyi halda, erməni tədqiqatçılarının bu iddiada israr etmələrinin əsas səbəbi Cənubi Qafqaz və Şərqi Anadolu torpaqlarında özlərini "ən qədim və yerli xalq" kimi qələmə verməkdir. Urartu dövləti coğrafi olaraq bu ərazilərdə mövcud olduğu üçün, erməni tarixçiləri Urartunu qədim erməni dövləti kimi təqdim etməyə çalışırlar. Əgər Urartu erməni dövlətidirsə, təbii olaraq onun baş tanrısı Haldi də "erməni tanrısı" elan edilməli idi. Erməni alimləri Haldi adını linqvistik manipulyasiyalara məruz qoyaraq, onu erməni panteonundakı digər tanrı adları ilə eyniləşdirməyə çalışır, iddia edirlər ki, Urartu süqut etdikdən sonra Tanrı Haldi erməni mifologiyasında Hayk (erməniların əfsanəvi əcdadı və baş tanrısı) statusuna keçmişdir.

Ermənilər Urartu irsinə, onun qalalarına, hidravlik kanallarına və ən əsası ali tanrısı Haldiyə sahib çıxaraq tarixlərini süni şəkildə geriyə çəkmək və regional güc görüntüsü yaratmaq istəyirlər. Dünyanın neytral şərqşünasları, assirioloqları epifaetləri bu iddiaları antielmi hesab edirlər. Erməni dili Hind-Avropa dil ailəsinə aiddir. Urartu və Hurri dilləri isə Hurri-Urartu ailəsinə mənsubdur; qrammatikaları və mənşəyi tamamilə fərqlidir. Ermənilərin Haldini erməni mənşəli hesab etmələri sırf ideoloji mənimsəmə və siyasi mifologiyadır.

*(ardı var)*

*Sura SEYİD,*
*filologiya üzrə fəlsəfə doktoru, dosent*
*Naxçıvan*

## Nəsimi irsinin leksik və semantik zənginliyini əks etdirən fundamental lüğətin III cildi nəşr olunub

